HAQQIN SÖZÜ-SÖZÜN HAQQI.

# Yeni YOL

31 yanvar 2016-cı il
№0016 (16)

yeni_yol@mail.ru | İCTİMAİ QƏZET | “იენი იოლი” საზოგადოებრივი გაზეთი | qəzet 17 iyun 2015-ci ildən nəşr olunur

## AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEVİN GÜRCÜSTANA GƏLİŞİ GÖZLƏNİLİR



Yaxın vaxtlarda Azərbaycan prezidenti İlham Əliyev Gürcüstana gələcək. Bu barədə Davosda Azərbaycanın dövlət başçısı ilə görüşmüş Gürcüstanın baş naziri Georgi Kvirikaşvili bəyan edib.

Kvirikaşvili belə bildirib ki, Əliyevlə görüşdə qaz verilməsi barədə söhbət getməyib. Kvirikaşvili qeyd edib ki, bu məsələ tamamilə texniki məsələdir. Baş nazirin sözlərinə görə, Gürcüstan və Azərbaycan arasında ümumiyyətlə heç bir fikir ayrılığı yoxdur.

“İlham Əliyevlə görüş dostluq və səmimilik şəraitində keçdi. Biz doğrudan da qazın verilməsi ilə bağlı danışmadıq. Yalnız o qeyd olundu ki, bu məsələ tamamilə texniki xarakter daşıyır. Bizim dövlətlərimiz arasında ümumiyyətlə heç bir fikir ayrılığı yoxdur. Əksinə, biz çox nikbin əhvali-ruhiyyədəyik ki, birgə layihələrimiz– İpək yolu, Bakı-Tbilisi-Qars vasitəsi ilə ölkələrimizin iqtisadi inkişafı üçün mühüm mənbə yaradırıq”, – Kivirikaşvili bəyan edib.

Onun sözlərinə görə, yaxın vaxtlarda Azərbaycan prezidenti Gürcüstana səfər edəcək. “Razılığa gəlmişik ki, cənab Əliyev yaxın vaxtlarda Gürcüstana səfər edəcək və bizim çox yaxşı münasibətlərimiz var”, – baş nazir bildirib.

## GÜRCÜSTAN VƏ TÜRKİYƏ GÖMRÜK QAYDALARINI SADƏLƏŞDİRİR

Gürcüstan və Türkiyənin gömrük administrasiyaları arasında beynəlxalq yol daşınmaları ilə (TİR) bağlı elektron məlumat mübadiləsi bu ilin martından başlayır. Bu barədə Gürcüstan maliyyə nazirliyi məlumat yayıb.

Gürcüstan və Türkiyə elektron rejimdə TİR informasiya mübadiləsinə başlayır. Ankarada müvafiq sənədi Gürcüstanın maliyyə naziri Nodar Xaduri və Türkiyənin ticarət və gömrük məsələləri naziri Bülənt Tüfəngçi imzalayıb.

Üçillik layihə iki ölkənin gömrük idarələri arasında elektron məlumat mübadiləsini və risklərin əvvəlcədən təhlili yolu ilə TİR qaydaları ilə hərəkət edən yüklər üçün gömrük qaydalarını sadələşdirəcək.

Türkiyə Gürcüstanın əsas ticarət tərəfdaşıdır. Gürcüstanın Türkiyə ilə xarici ticarət dövriyyəsi 2015-ci il ərzində 1,52 milyard dollara yaxın olub. Bu göstərici isə 2014-cü ilin yanvar-noyabr aylarındakından 23% azdır. Türkiyə ilə dövriyyə Gürcüstanın ümumi xarici ticarət dövriyyəsinin 15,3%-ini təşkil edir.




## BAŞ NAZİR SEÇKİLƏR ZAMANI QARDABANİDƏ BAŞ VERMİŞ HADİSƏLƏRDƏN DANIŞDI



Gürcüstanın baş naziri Georgi Kvirikaşvili Qardabani rayon administrasiyasının başçısının növbədənkənar seçkiləri zamanı baş verən insidenti şərh edərkən, dava-dalaş salanların sərt cəzalandırılmasının lazım gəldiyini bəyan edib.

MSK-nın məlumatına görə, yanvarın 28-də seçkilər sakit və ciddi qanun pozuntuları olmadan keçirilib. Lakin seçki məntəqələrindən kənarda toqquşmalarsız ötüşməyib. Məntəqələrin bağlanmasına az qalmış, qaranlıq düşəndə hakimiyyət tərəfdarları ilə müxalifət arasındakı çığır-bağır dava-dalaşa çevrilmişdir.

“Seçki məntəqələrindən kənarda müəyyən gərginliklər yaşanıb. Mən bütün tərəfləri, həmçinin, əlbəttə ki, hakim qüvvənin tərəfdarlarını hərarəti maksimum aşağı salmağa çağırıram” – Kvirikaşvili yanvarın 29-da hökumətin iclasında deyib. Baş nazir 2016-cı ilin payızına nəzərdə tutulmuş parlament seçkilərinin vacibliyini vurğulayıb.

“Bir çox mədəni ölkələrdə fiziki təhqirə görə daha ağır cəzalar nəzərdə tutulur. Bu nöqteyi-nəzərdən seçkilərə qədər biz qabaqlayıcı tədbirlər görməliyik. Mən ədliyyə nazirindən qanunvericiliyə yenidən baxılmasını xahiş edirəm” – Kvirikaşvili qeyd edib.

O, bildirib ki, Gürcüstan yüksək mədəniyyətə malik Avropa ölkəsi olduğunu sübut etməlidir.

## AZƏRBAYCAN, TÜRKİYƏ VƏ GÜRCÜSTANIN İQTİSADİYYAT NAZİRLƏRİNİN ÜÇTƏRƏFLİ GÖRÜŞÜ KEÇİRİLƏCƏK

İhlas xəbər agentliyinin yanvarın 27-də Türkiyənin iqtisadiyyat naziri Mustafa Elitaşa istinadən yaydığı xəbərə görə, fevralın 19-da Azərbaycan, Türkiyə və Gürcüstanın iqtisadiyyat nazirliklərinin başçılarının Türkiyənin Kayseri vilayətində üçtərəfli görüşü olacaq.

Trend informasiya agentliyinin yaydığı məlumatda isə bildirilib ki, Kayseridə üç ölkədən təxminən 500 nəfər biznesmenin qatılacağı tədbirin keçirilməsi nəzərdə tutulur.

İNCƏSƏNƏTDƏN BAŞLAYIB SİYASƏTDƏ BİTƏN SÖHBƏT 2

“QAZPROM”A YOX DEMƏK ÜÇÜN 12 SƏBƏB (ixtisarla) 3

XƏYALINDAN YAPIŞ 4

BORÇALI BUTAFORİYASI (DEBÜT) 5

HƏYATIMIZDAKI MƏNƏVİ BOŞLUQLAR 6

ALXAN QASIMOV:“XƏSTƏLİKLƏRİN QARŞISININ ALINMASI ONUN MÜALİCƏSİNDƏN ASANDIR” 7

GƏNCƏLİ ALİM “NOBEL” MÜKAFATINA NAMİZƏD GÖSTƏRİLDİ 8

## GÜRCÜSTAN MÜDAFİƏ NAZİRLİYİ “KİBERORDU” YARADIR

Gürcüstan müdafiə nazirliyi yeni növ qoşun – kiberordu yaradılması konsepsiyası üzərində işləyir. Yeni ordunun əsas funksiyası kiberməkanı qorumaq, dövlət və özəl təşkilatlara xaker hücumlarının dəf etmək və terrorizmlə mübarizə aparmaqdır. Kiberehtiyatda olmaq hərbi xidmətə bərabər tutulacaq.

Digital Report-un məlumatına görə, kiberorduya ilk çağırış və təlimlər müvafiq olaraq 2016-cı ilin yazında və yayında başlaya bilər. Gürcüstanın kibertəhlükəsizlik Bürosunun rəhbəri Andria Qosiridzenin sözlərinə görə, ehtiyat qulluqçular mülkü sektordan – parlament, bank, ictimai xidmət, nəhəng korporasiya və qeyri-hökumət təşkilatlarından çağırılacaq.

Bu gün heç bir hərbi əməliyyat kiberelement olmadan həyata keçirilmir” – Qosiridze əlavə edib.

Gürcüstanın kiberehtiyatının yaradılmasında Estoniya mütəxəssisləri kömək edəcəklər, seçim zamanı isə fiziki göstəricilərə deyil, intelektual göstəricilərə xüsusi diqqət yetiriləcək. Bundan başqa, informasiya texnologiyaları sahəsində müvafiq biliklərə sahib olanlar ehtiyatda xidmət keçə biləcəklər, seçimdən sonra onlar xüsusi təlim keçəcəklər.

Layihənin təşəbbüskarlarının fikrincə, Gürcüstan regionda öz kiberordusu olan ilk ölkə olacaq.

Müdafiə naziri Tinatin Xidaşeli əvvəllər qeyd etmişdi ki, Gürcüstan XXI yüzilliyin çağrışlarına cavab verməyə hazır olmalıdır. Onun sözlərinə görə, bu gün “müharibə” anlayışı yeni məna kəsb edib, müsair ordunun əsgərinə isə hərbi geyim lazım deyil. “Hibrid müharibələr barədə bu gün bütün dünya danışır. Biz yeni çağırışlara adekvat cavab verməliyik. Bizim böyük planlarımız var. Düşünürəm ki, 2016-cı ilin yayında test şəklində kiberehtiyatın sınaq təlimlərini keçirəcəyik” – Xidaşeli deyib.



Afiq MUXTAROĞLU
amuxtaroglu@mail.ru

## İNCƏSƏNƏTDƏN BAŞLAYIB SİYASƏTDƏ BİTƏN SÖHBƏT

**Deməyiblərmi ki, keçi can hayındadır, qəssab piy axtarır. İndi biz onun gününü işləyirik. Bizdən bir neçə yüz il əvvəl yaşamış flamand rəssamı Van Deykin əsəri olduğu belə şübhə doğuran bir tablonun çək-çevirini edirik. Guya bizim başqa bir işimiz-gücümüz yox imiş, hər yarağımız bitibmiş, bircə saqqal darağımız qalıbmış. Hüquq mühafizə orqanlarımızın ayrı bir dərdi-azarı yoxmuş, elə bu Van Deyk məsələsini çözməyə girişməli imiş. Bədbəxt Van Deyk bilsəydi ki, çəkdiyi tablonun üstündə Gürcüstanda, Türkiyədə camaat saç yolmasına çıxıb, polis işə qarışıb yəqin tövbələtməli olardı və ya özündən məmnun qalıb, necə böyük bir rəssam olmasının sevincini yaşayardı.**

Mənim Van Deyk deyilən o məşhur fırça ustası ilə bir şəxsi qərəzliyim-filanım da yoxdur ki, deyəm belə filan oğlu bizi işə salıb. İnandırım ki, onun haqqında güldən ağır bir söz demək belə istəmirəm. Nədən ki, qaragün başını aşağı salıb, bildiyi işi yapıb, özündən sonra gələnlər baxıb feyziyab olsunlar deyə rəsm çəkib. Amma biçarənin murazı gözündə qalıb, tablo əldən ələ keçərək, müəllifinə rəhmət qazandırmaq əvəzinə, lənət gətirib. Tablo nə yollasa Gürcüstanda Abaşidzelər ailəsinin əlinə düşüb. Sonra da ailənin pula ehtiyacı yaranıb. Və istəyiblər ki, cənab Van Deykin rəsm əsərini satıb düşdükləri durumdan canlarını qurtarsınlar. Filmin bu yerində Vahid Hüseynov deyilən birisi ortaya çıxıb və tablonu böyük qiymətə satmağın mümkünlüyünü bildirib. Arada sözləşmə imzalanıb və beş-altı il qabaq bu başı bəlalı əsər İstanbula gedib çıxıb. Beş-on gün qabaq müştərisini bulmaq məqamında türk polisi əsərə əl qoyub. İşə bizim hüquq mühafizə orqanları da qarışıb. Hələ ki, aləmi qarışdıran bu Van Deyk yadigarının ölkəmizə nə yolla gətirilməsi məlum deyil. Bildikmi xəbər verib, muştuluğumuzu sizdən almağı düşünürük.

Ağgünlü canım, rəhmətlik Məşədi İbad demiş: heç hənananımı yeridir? Xalq nəyin hayındadır, sən nəyin hayındasan? Qışın oğlan çağında nə Van Deyk gordan çıxıb ocağımıza qaz verəndir, nə də onun tablosu bizim çörək təknəmizi dolduranıdır. Bu məqamda sizdən rüsxət alıb, qaz demiş qazlı bir söhbətə girişmək istəyirəm. Yazımın üslubu da bir az dəyişik olar, iki seriyalı bir film kimi görünər. Bilirəm belə bir üsluba əl atmağım ürəyinizcə olacaq. Nədən ki, payızdan başlayan qaz söhbəti nə bitir, nə tükənir. Sağ olsun Kaxanı, energetika nazirimiz Kaladzeni deyirəm, bizi azara saldı. Gül kimi qazımız yanır, üstündə Allahın verdiyindən evin xanımı bişirib-düşürür, biz də kəmərin altını bərkidib, gedirik işimizin dalınca. Hərçənd ki, bir çoxumuz işsizik. İndi ilin-günün bu vaxtında ölkəmiz enerji təhlükəsizliyini təmin etməlidir deyib, iki ayağını bir başmağa dirəyib, "Qazprom"dan qaz almalıyıq fikrini ortaya atmaqla qazancımız nə oldu? Aldım qoz, satdım qoz oynamağın yeridirmi heç? Qarşıdan gül kimi seçkilər gəlir, gedib seçkinə hazırlaşandan deyilsənmi? Müxalifətin əlinə də girəvə düşdü, etiraz aksiyalarına başladı, neçə ilin dostu Azərbaycanı da özündən küsdürdün, yaxşımı oldu?.

Mən bir vətəndaş kimi, Gürcüstanın dövlətçilik maraqlarını qorumağın ikiəlli tərəfdarıyam, amma Rusiya adlı Gürcüstanın qarı düşməninin ölkəyə ayaq açması yolu ilə yox. Mən köhnə palan içi tökmək fikrindən də uzağam, deməsəm də olmayacaq. Georgiyevsk andlaşmasından sonra nə qazandığımızı xatırlamaq, fikrimcə, bəd olmaz. Fikrimə qarşı oppenentlik edənlər deyəcəklər ki, onda Rusiyada mütləq monarxiya hökmranlıq edirdi. Razıyam. Sonra sovetləşmə gəldi, bir şey dəyişmədi axı? Lenini də, Stalini də, elə Qarboçovu da monarx deyildilərmi? Ardınca da yığışıb sovetlərin məzarını qazmadıqmı? Sovetlərin xarabalığından müstəqil dövlətlər yarandı. Rusiya Gürcüstandan əl çəkmədi, əl çəkmərəm dedi. Elə müstəqil, sovetlərin varisi Rusiyanın prezidenti Putinin də monarxdan bir fərqi olmadığını düşünürəm. Putin də çar kimi, KP-nın baş katibi kimi monarx olaraq qaldı, görünür hələ Rusiya dövlətçiliyi üçün demokratik düşüncə yad ünsürdür. Abxaziyanın, Cənubi Osetiyanın anneksiyası dünən-srağagünün işidir, bunu təsdiq etmək üçün arxivlərə getməyə, arxeoloji qazıntılar aparmağa da ehtiyac yoxdur, görünən dağa nə bələdçi?

**Hər şeyin bir sonu olacaq, qazı olan qazını satmağa bazar tapacaq, qazı olmayan da yerin deşiyindən də olsa qaz tapıb alacaq. Heç narahat olmayın, Van Deykin tablosunu 14 milyon dollara almaq istəyən hələ aranın sakitləşməyini gözləyir, ortaya çıxacaq, tablonu asmağa divar isə hər vaxt tapılacaq.**

## 31 YANVAR MƏHƏMMƏD ƏMİN RƏSULZADƏNİN DOĞUM GÜNÜDÜR

Yanvarın 31-i Azərbaycan Demokratik Cümhuriyyətinin qurucularından olan Məhəmməd Əmin Rəsulzadənin doğum günüdür.

M.Ə.Rəsulzadə 1884-cü ildə Bakının Novxanı kəndində doğulub. O, 1904-cü ildə "Hümmət" təşkilatının yaradılmasında iştirak edib.

1908-ci ildə M.Ə.Rəsulzadə çar üsul-idarəsi tərəfindən həbs olunması təhlükəsi yarandıqda Bakını tərk edərək, İrana gedir. O, 1910-cu ildə İran Demokrat Partiyasının əsasını qoyur. Burada "İrane Nou" və "İrane Ahat" qəzetlərinin baş redaktoru olur.

1917-ci ilin payızında M.Ə.Rəsulzadə Rusiya parlamentinə Azərbaycan və Türküstandan millət vəkili seçilib. Həmin il Müsavat Partiyasının sədri olub. 1918-ci il mayın 27-də seymin müsəlman fraksiyasına daxil olan partiyaların üzvlərindən ibarət Azərbaycan Milli Şurası yaradılıb və səs çoxluğu ilə M.Ə.Rəsulzadə Milli Şuranın sədri seçilib. 1920-ci il aprelin 28-də bolşevik işğalından sonra M.Ə.Rəsulzadə Azərbaycanı tərk edib.



1932-ci ildən M.Ə.Rəsulzadənin fəaliyyətinin Avropa dövrü başlayıb. Bu illərdə o, Almaniyada "İstiqlal" qəzetini, "Qurtuluş" jurnalını nəşr etdirir, Polşada milli Azərbaycan nəşriyyatını yaradıb, polyak dilində "Azərbaycan müstəqillik uğrunda mübarizədə" kitabını çap etdirib.

M.Ə.Rəsulzadə 1955-ci il martın 6-da Türkiyənin Ankara şəhərində vəfat edib, "Əsri" məzarlığında dəfn olunub.

## ELM VƏ TƏHSİL NAZİRİ TAMAR SANİKİDZENİN QARDABANİDƏ MÜƏLLİMLƏRLƏ GÖRÜŞÜ OLDU



Gürcüstanın Elm və Təhsil Naziri Tamar Sanikidze yanvarın 22-də Qardabaniyə səfər edib.

Qardabani şəhər mədəniyyət evində ictimai məktəblərin müəllimləri və rayon ictimaiyyətinin nümayəndələrilə nazirin görüşü keçirilib. Görüş zamanı Qardabanidəki ayrı-ayrı məktəblərin nümayəndələri məktəblərin vəziyyəti və problemləri haqqında fikir və təkliflərini səsləndiriblər.

Rayonun Candar, Birlik, Vaxtanqisi ictimai məktəblərinin problemləri ilə bağlı məsələlər nazirin diqqətinə çatdırılıb. Muğanlı məktəbinin təhsil və tədris üçün yaramadığı barədə nazirə məlumat verilib.

T. Sanikidze çıxışında Gürcüstanda məktəblərin mərhələli şəkildə təmir olunduğunu və yeni məktəb binalarının tikildiyini bildirib. O, 2016-2019-cu illərdə 10 bal toplayaraq sertifikat alan müəllimlərin növbəti imtahan mərhələsində baş müəllim statusuna alacaqlarını bəyan edib. Onun sözlərinə görə, sertifikat alacaq milli azlıq nümayəndələri internet vasitəsi ilə öz ana dillərində imtahan verəcəklər.

Görüşdə Tamar Sanikidze ilə birgə Kvemo Kartli bölgəsinin qubernatoru Paata Xizanaşvili, rayon rəhbərləri və digər rəsmi şəxslər iştirak ediblər.

## TÜRK TƏLƏBƏLƏR "GÜRCÜSTAN GƏNCLƏRİNƏ YARDIM VƏ MAARİFLƏNDİRMƏ TƏŞKİLATI"NIN QONAĞI OLMUŞLAR

Türkiyə Cumhurriyyətinin Nazirlər Kabineti və Qohum Topluluklar Komitəsinin dəstəyi, Türkiyənin Beynəlxalq Gənc Dərnəyi, Könüllü Gənclər İctimai Birliyi və Gəncliyə Yardım Fondunun təşkilatçılığı ilə həyata keçirilən, "Keçmişin izində Gələcəyə Yürüyən Gənclik" layihəsi çərçivəsində Türkiyə və Azərbaycandan seçilən tələbələr qarşılıqlı olaraq iki ölkəni ziyarət ediblər. Layihə çərçivəsində, ilk olaraq türk tələbələr Azərbaycana gəlib. Türk tələbələr Bakı, Gəncə, Şamaxı, Quba, Zaqatala kimi şəhərləri ziyarət edib və tarixi məkanlarla tanış olublar.

Azərbaycana səfərdən sonar Türkiyədən olan tələbələr Gürcüstana gəlmişlər. Gürcüstanın bir sıra bölgələrini gəzən və Tbilisinin tarixi guşələrini ziyarət edən türkiyəli qonaqlar yanvarın 30-da Qardabanidə olmuşlar. Türk gənclər Qardabanidə fəaliyyət göstərən "Gürcüstan Gənclərinə Yardım və Maarifləndirmə Təşkilatı"nı ziyarət edərək, təşkilatın üzvləri və rayonun bir qrup gənci ilə görüşmüşlər. Görüşdə qonaqlar gürcüstanlı gənclərlə təmas qurmaqdan məmnun qaldıqlarını, "Keçmişin izində Gələcəyə Yürüyən Gənclik" layihəsinin məram və məqsədlərindən bəhs etmişlər.




## QARDABANİDƏ QAMQEBELİ SEÇKİLƏRİ KEÇİRİLDİ

Yanvarın 28-də Qardabani rayon administrasiyasının başçısının növbədənkənar seçkiləri baş tutub. Seçkilərdə hakim "Gürcü arzusu" koalisiyasının namizədi Qoça Camareuli və müxalifətdə olan "Vahid milli hərəkat" partiyasının namizədi Besik Kaxabreşvili mübarizə aparıblar.

Gürcüstan Milli Mərkəzi Seçki Komissiyasının məlumatına görə, Qardabani rayon qamqebelesi seçkilərində seçicilərin 33,13%-I iştirak edib ki, bu da cəmi 22 955 seçici deməkdir. Xatırladaq ki, Qardabanidə səsvermə ərəfəsində 71 748 nəfər seçici olduğu barədə məlumat yayılmışdı.

64 seçki məntəqəsində iki nəfər arasında seçim edən vətəndaşların 70,57%-i Qoça Camaraulinin və 29,43%-i Besik Kaxabreşvilinin namizədliyini dəstəkləmişdir.

Beləliklə, seçicilərin 70,57%-inin səsini alan Qoça Camarauli Qardabani rayaon administrasiyasının başçısı seçilmişdir.

Bu seçkilər barədə daha ətraflı məlumat almaq üçün MSK-nın rəsmi səhifəsi olan cesko.ge saytına müraciət etmək olar.

# "QAZPROM"A YOX DEMƏK ÜÇÜN 12 SƏBƏB *(ixtisarla)*

**1."Qazprom"un qazı Azərbaycan qazından bahadır. Azərbaycan qazının istehsalı və Gürcüstana göndərilməsi iki dəfə ucuz başa gəlir. "Qazprom"un Sibirdə qaz əldə etməsi "SOCAR" və "BP"yə nisbətən daha çətin şəraitdə başa gəlir. "Qazprom"un qazı Azərbaycan qazından fərqli olaraq uzaqdan gəlir. Bu bizə imkan verir ki, qazı Azərbaycandan daha yaxşı qiymətə alaq, nəinki "Qazprom"dan. Hətta əgər "Qazprom" bu gün bizə qiymətdə güzəştə getsə də, sabah qiyməti qaldırmalı olacaq. Azərbaycanın hər vaxt "Qazprom" nisbətən imkanı olacaq ki, bizə ucuz qiymətə qaz satsın.**

2. "Qazprom" etibarsız təchizatçıdır, Azərbaycandan isə qaz stabil və etibarlı verilir. "Qazprom"dan qaz almaq böyük riskdir. Son illər ərzində "Qazprom" bir neçə dəfə qışın ortasında heç bir əsas olmadan, xəbərdarlıq etmədən qaz verilməsini dayandırdı. "Qazprom" dəfələrlə Ukraynaya, Şərqi Avropa və Baltikyanı ölkələrə də qaz verilməsini bu cür dayandırıb. Azərbaycan bizi müntəzəm və etibarlı şəkildə qazla təmin edir.



3. "Qazprom"dan aldığımız qazın həcminin artırılması ilə biz diversifikasiya effekti əldə edə bilmərik. Gürcüstanın hakimiyyət nümayəndələri tez-tez deyirlər ki, "Qazprom"un qayıtması ilə Gürcüstan diversifikasiyaya nail olacaq. Diversifikasiya təchizatın təkcə Azərbaycandan deyil, Rusiyadan da olmasını nəzərdə tutur. Əgər "Qazprom"un qazı diversifikasiya üçün alınırsa, onda Azərbaycan qazının nə qədəri "Qazprom" qazı ilə əvəzləmək lazımdır. Daha ucuz və etibarlı Azərbaycan qazının daha bahalı və təhlükəli Rusiya qazı ilə əvəzlənməsi diversifikasiyaya gətirib çıxarmayacaq.

4. Azərbaycanın kifayət qədər qazı var. Azərbaycan dünyada nəhəng qaz istehsalçılarından biridir. Bu ölkənin qaz ehtiyatı 2,5 tirilyon kubmetr təşkil edir! İldə 20 milyard kubmetr istehsal olunur, bunun 9 milyardı Azərbaycanda istifadə olunur, 11 milyardı isə ixrac edilir. Şahdəniz layihəsinin ikinci mərhələsi işə düşdükdən sonra qaz istehsalı 30 milyard kubmetrədək yüksələcək. Bu səviyyədə istehsal ən azı 80 il bəsdir. Gürcüstan ildə 2,5 milyard kubmetr qaz istifadə edir. Azərbaycan üçün bizim ölkəmizi nə indi, nə də gələcəkdə qazla təmin etmək problem olmayacaq.

5. Azərbaycanın texniki imkanları hətta qış aylarında da Gürcüstanı kifayət qədər qazla təmin etməyə imkan verir. Energetika naziri Kaxa Kaladzenin Azərbaycanın "Qazax" və "Cənubi Qafqaz" qaz kəməri ilə əlavə qaz verə bilməməsini "SOCAR"ın nümayəndələri təkzib etdilər. Məlum oldu ki, "Qazax" xəttilə qaz verilməsini 6 milyon kubmetrdən 7 miyonadək artırmaq mümkündür.

6. "Qazprom" Kremlin əlində siyasi alətdir. Kreml və Putin "Qazprom"dan dəfələrlə qonşu ölkələrə təsir etmək üçün istifadə edib. Məhz buna görə Avropa Birliyi Rusiya qazından asılılığı minimuma endirmək məqsədi güdür. Bunun nəticəsidir ki, "Qazprom"un Avropaya ixrac etdiyi qaz 200 milyard kubmetrdən 175 milyard kubmetrə enib. Çin də "Qazprom"dan yeni həcmdə qaz almağa tələsmir. Nəticədə "Qazprom"un maliyyə vəziyyəti ağırlaşıb. Son illərdə şirkətin bazar qiyməti 90% azalıb. Başqa sözlə, "Qazprom" Kremlin əlində siyasi silah kimi kütləşib.

7. Gürcüstan Azərbaycan üçün daha çox etibarsız tərəfdaşa çevrilib. 2012-ci ilin oktyabrından Gürcüstanın Azərbaycanla münasibətləri mürəkkəbləşib. Azərbaycan mətbuatı tez-tez Gürcüstanın Azərbaycana münasibətinin dəyişməsindən söhbət açır. Eyni zamanda neftin qiymətinin kəskin pisləşməsi Azərbaycanın iqtisadi vəziyyətini pisləşdirib. Son bir il ərzində Azərbaycan manatı 120% dəyərini itirib. Bununla bizim tərəfdaş ölkədə qaz satışından daxil olan möhkəm valyutaya kəskin ehtiyac var. Qaz idxal edən Gürcüstan istənilən halda qazı dollarla almalı olur. Sual meydana çıxır ki, nəyə görə dollar Gürcüstandan tərəfdaşımız Azərbaycana yox, Rusiyaya getməlidir?

8. Azərbaycan özünün inhisarçılıq mövqeyindən sui-itifadə etmir, gələcəkdə də etməyəcək. Qaz təchizatına görə biz Azərbaycandan necə asılıyıqsa, tranzitə görə də Azərbaycan bizdən asılıdır. Bu qarşılıqlı münasibət olduqca sabit balans yaradır.

9. "Qazprom"la qazın tranziti haqqında bağlanmış müqaviləyə əsasən Ermənistana verilən qazın 10%-i tranzitə görə Gürcüstanda qalır, bu, Gürcüstan üçün sərfəlidir. Ona görə də, Rusiya dəfələrlə bu müqaviləni dəyişdirmək istəmiş, hər dəfə də rədd cavabı almışdır. Rusiyanın beynəlxalq standartlara görə, tranzit üçün natura ilə deyil, pul şəklində ödəmə edilməlidir arqumenti sadəcə olaraq qaraqorxudur. İki ölkə arasındakı razılaşma heç bir beynəlxalq standartla tənzimlənmir. Bizim üçün sərfəli olan bu müqaviləni dəyişmək lazım gəlmir. Bu müqaviləyə görə, "Qazprom" bizim ərazimiz vasitəsilə Ermənistanı qazla təmin edir, bu, bizim güclü mövqeyimizdir. Bu mövqeyi zəiflətmək olmaz.

10. Energetika naziri "Qazprom"la danışıqların əsas aspektlərini açıq-aşkar bizdən gizləyir. O, bu danışıqlar barədə bir-birini inkar edən məlumatlar yayır. Bütün bu versiyalar bir-birinin ardınca təkzib olunur.

Bizim hökumətin bəyanatları Azərbaycan tərəfinin bəyanatlarından daim fərqlənir. Energetika naziri qaza tələbatın 19% artmasından danışır, "SOCAR" 9% artımdan bəhs edir. 2,5%-lik iqtisadi artım şəraitində qaz istehlakının 19% artması ağla sığmır.

11. Hökumətimiz "Qazprom"u gürcü bazarına qaytarır. 2008-ci ildən başlayaraq biz "Qazprom"dan aldığımız qazın həcmini dönmədən azaltmışıq. Bu, ölkəmizdə sürətli iqtisadi inkişaf getdiyi vaxt baş verib. Son üç ildə biz Rusiya şirkətindən qaz almırıq.

**12. İstər-istəməz bizim hökumət Cənubi Qafqazda Rusiyanın təsirinin artmasına kömək edir. Rusiyaya Cənubi Qafqazda onun üçün əlverişli və mühüm geosiyasi dəyişikliklərin baş verməsi çox gərəklidir(deməli, Gürcüstan, Azərbaycan, Türkiyə və Qərb üçün zərərli). "Qazprom"un Gürcüstan hökuməti ilə apardığı danışıqlar böyük ehtimalla, Rusiyanın bu məqsədinə xidmət edir.**

Qiqa BEDİNEİŞVİLİ
"Evrokommunikator",
"Qruziya Online"

## THE WASHİNGTON POST: POSTSOVET ÖLKƏLƏRİ ARASINDA GÜRCÜSTAN ƏN DEMOKRATİK ÖLKƏDİR

Gürcüstan Kremlin siyasi təhlükəsi ilə üz-üzədirmi? The Washington Post-un Gürcüstan haqqında məqaləsi belə başlayır. Bu suala nəşrin özü "yox" cavabı verir.

"Gürcülərin nöqteyi-nəzərinə görə Rusiya ilə münasibətlər həqiqətən də qarışıqdır və Rusiyanın təsirinin artması təhlükəsi mövcuddur.

Gürcüstan olduqca böyük strateji əhəmiyyətə malikdir. Postsovet ölkələri arasında Gürcüstan ən stabil və demokratik ölkədir və regionda sonuncu ümid yeridir. ABŞ və Avropa demokratiyanın yerindən tərpənməsi və iqtisadiyyatın inkişafı üçün milyardlar xərcləyib, Tbilisi də bu plana uyğun hərəkət edib.

Əgər Gürcüstan Qərbdən üz çevirsə, bu, təkcə ölkədə demokratiyaya ağır zərbə olmayacaq, həm də bu halda Rusiya Yaxın Şərqə – Avrasiya enerji daşıyıcılarına birbaşa dəhliz əldə edəcək, regionun demokratikləşdirilməsinə ümid itəcək.

Rusiyanın dominantlığı şəraitində Gürcüstan 90-cı illərdə olduğu kimi qeri-qanuni ticarət, vətəndaş müharibəsi və b. k. vəziyyətlərlə üzləşəcək." – The Washington Post yazır.

## GÜRCÜSTAN AZAD TİCARƏT ÜZRƏ DÜNYADA 3-CÜ YERİ TUTUR

Heritage Foundation-nun tərtib etdiyi iqtisadi azadlıq indeksində ticarət azadlığı səviyyəsinə görə Gürcüstan mümkün 100 baldan 88,6 bal toplayaraq üçüncü olub.

Bu komponent üzrə Gürcüstanın göstəricisi 2014-cü illə müqayisədə dəyişməz qalıb.

Reytinqin lideri 90 bal toplayan Honkonqdur, Lixtenşteyn, Sinqapur, Makao, İsveçrə də bir o qədər bal toplayaraq, birinci olublar.

İkinci yeri 88,8 bal toplayan Afrika dövləti Svazilend tutub.

Reytinqin tərtibatçıları qeyd ediblər ki, dünya miqyasında ticarət azadlığı üzrə göstəricilər təsdiq edir ki, azad ticarəti olan ölkələrin göstəriciləri, mürəkkəb ticarətə malik ölkələrdən üstündür.

"Tədqiqatlar azad ticarət və digər pozitiv indikatorlar, məsələn, yoxsulluğun aşağı həddi, iqtisadi göstəricilər və biznes mühiti arasında ciddi əlaqə olduğunu təsdiqləyir", – Heritage Foundation belə qənaətə gəlib.

## AZƏRBAYCAN GÜRCÜSTANDAN DÖYÜŞ SİLAHLARI ALIR

Gürcüstanın Dövlət "Delta" hərbi elmi-texniki mərkəzi 2015-ci ildə Azərbaycana minaatan və qumbaraatanlar, Misirə isə bir neçə zirehli inkassator maşını satıb.

Bundan əlavə, Moldovaya dolu əleyhinə sistemin verilməsi haqqında danışıqlar başa çatmaqdadır.

Bu günlərdə "Delta"nın Səudiyyə Ərəbistanı ilə böyük həcmli razılaşma əldə etdiyi bəlli olub. Səudiyyə Ərəbistanı 100 milyon lari (təxminən 40 milyon dollar) dəyərində 100-dən artıq zirehli tibbi-təxliyyə maşını əldə etmək niyyətindədir. "Delta" 12 maşından ibarət ilk partiyanı yanvarın 30-da göndərməlidir.

"Delta"nın məhsulları ölkə daxilində də məşhurdur. Məsələn, Liberty Bank "Delta"dan 100-dən artıq zirehli jilet alıb.

Dövlət "Delta" hərbi elmi-texniki mərkəzi 2010-cu ildə yaradılıb. O vaxtdan mərkəz "Lazika" döyüş maşını, "Didiqori" zirehli avtomobili, yaylım atəş açan reaktiv sistemlər, pilotsuz aparatlar, tüfənglər, qumbaraatanlar, minaatanlar, tank əleyhinə minalar, zirehli jilet və dəbilqələr, hərbi çadırlar və sair istehsal edir.

## TBİLİSİDƏ YEDDİULDUZLU MEHMANXANA AÇILACAQ

Tbilisinin mərkəzində ərəb şirkəti "Dabi qrupp"un inşa etdiyi yeddiulduzlu mehmanxananın tikintisi bu ilin iyulunda başa çatacaq. Bu barədə şirkətin icraçı direktoru Sem Edvards məlumat verib.

Onun sözlərinə görə, mehmanxananın açılışı bir qədər əvvələ planlaşdırılsa da, inşaat materiallarının çox hissəsi Avropadan idxal olunduğundan tikinti uzanır.

"Hazırda lazım olan materialın hamısı artıq Gürcüstana gətirilib, işlər daha intensiv gedir. İnşaat işlərinin 85%-i başa çatıb. İnvestisiyanın ümumi dəyəri 100 milyon dollar təşkil edir" – Sem Edvards bəyan edib.

O, bildirib ki, "Millenium biltmor" mehmanxanası nadir mehmanxanadır. Belə ki, bu şəbəkə demək olar Kaliforniyadan başqa dünyanın heç bir ölkəsində fəaliyyət göstərmir. Gürcüstan dünyada bu cür mehmanxananın olduğu ikinci ölkə olacaq.

Edvardsın sözlərinə görə, mehmanxananın tikintisi ilə paralel olaraq, Marksizm-Leninizm İnstitutunun tarixi binası da bərpa olunur, onun bazasında otel tikilir.

"Dabi qrupp"un nümayəndəliyində bildiriblər ki, şirkət digər strateji layihələrin gerçəkləşdirilməsi üçün Gürcüstan hökuməti ilə danışıqlar aparır.

# XƏYALINDAN YAPIŞ

**Bu gün bir az duyğusal olmağa qərar verdim. Bir az sentimental. Bəlkə də gərəksiz görünəcək, heç hənanın yeridirmi fikrinin ağıllarda doğulmasına təkan verəcək, lakin, deməliyəm ki, vəziyyət bundan ibarətdir. Hamımıza – hamınıza yaxşı məlumdur ki, hal-hazırda insanların nə hiss edəcəklərini özlərinin də bilmədikləri bir dönəmin içərisindəyik. Niyə deməyəcəyinizə adım qədər əminəm. Ol səbəbdən ki, bu durumda olmamıza minlərlə səbəb var. Bu səbəblər isə heç birimizdən gizli deyil, çünki hər birimizin həyatına bu və ya digər şəkildə təsir göstərirlər. Cəmiyyət minlərlə probleminin boyunu bəsləyib başını tumarlarkən, bir o qədərinə də hamilədir. Çünki, problemlər, dərdlər, tasalar və bu qəbildən olan digər şeylər insanlara çox bənzəyirlər. Odur ki, heç zaman qəribsənmirlər. Odur ki, biz problemlərimizin ətini yesək də, sümüyünü çölə atmırıq.**

Yuxarıda sadaladığım və məhv edib xilas olmağa qıya bilmədiyimiz işlər həyatımız boyu bizi sıxır, yox daha doğrusu sıxıb suyumuzu çıxarır. Nəticədə hər şeydən küsürük. Hər şey boş və mənasız görünməyə başlayır. Bəzən özümüz belə... Necə deyərlər, əlimiz hər yerdən üzülür. Ancaq, insanoğlu bu dünyaya, yer üzünə yaşamaq üçün göndərilibsə, ki bunun belə olmasına kimsənin şəkki də yoxdur. Deməli, yaşamaq bizim boynumuzun borcudur. Yaşamaq, ancaq insan kimi yaşamaq. Yıxılmaq insan yenidən qalxmalı olduğunu xatırlatmaq üçündür əslində, aldanmaq yenidən anmalı olduğunu başa salmaq üçündür. Bacarmamaq yenidən cəhd edib, qazanmaq eşqinin həzzinə varmaq üçün vardır. İnsan xəyal edə bildiyi qədər var. Xəyal edə bildiyi qədər yaşayır. Bəli, sənin varlığın arzuların qədərdir, boyun gözlə görünən deyil, xəyalların qədərdir. Əslində əlin evin tavanına çata bilmədiyi halda, göylərdən ulduz yığmağa qadirdir. Bunlar ilk baxışda nağıl kimi də səslənə bilər. Bu düşüncəyə düşmənizlə mən də ikiəlli razıyam, ancaq, işin əsli belə deyil. Heç kimi sizə, bizə, mənə, sevdiklərimizə ulduzları qızıl nimçə-də gətirəcək deyil. Ulduzu sözün gəliş ideyirəm, sizə də aydın oldu. Söhbət mümkünsüz görünən arzularımızdan gedir. Söhbət ilk andaca olmaz, elə şey buralarda mümkün deyil qavramını yıxa bilməmizdən gedir. İnanmaq qazanmağın yarısıdır, deyiblər. Doğrudur. İnanmaq, istəmək və maneələrdən qorxub istədiklərinə, arzularına xəyanət etməmək, qazanmağın yarısından da bir az çoxdur. Geriyə qalanı bir az zəhmət, bir az əziyyətdir, əməkdir, çalışmaqdır. Və budur, sən xəyalınla qucaq-qucağasan. Ona görə də, xəyal etməkdən qorxmamalıyıq. Bu cümləni, bax bu son cümləmi də boşuna sözgəlişi yazmadım. Əsla. Bəndəniz məhz bu sözləri yazmağa, canlandırmağa vadar oldu, çünki artıq xəyallarından vurulan insanlar günbəgün artmaqdadır. Çünki, insanların gözü də, ürəyi də, istəyi də hədə-qorxu içində var olmağa çalışır. Gah həyat, gah insanlar sıxıntı ilə boğur insanları. Kimi varını itirməkdən qorxarkən, kimi də yoxuna başqasının tamah salmasından qorxur. Çünki həyat, çünki gedişat insanları küncə qısdırmaqla məşğuldur. Xəyallarından qan daman, gözlərindən qorxu tökülən insanlar bu dünyaya nə fayda verə bilər axı?.. Heç nə... Bu dünyada yaşamanın, yaşadığıma dəydi deməsinin yolu isə istəklərini gerçəkləşdirməkdir. Həyatda iz qoyub gedək demirəm, şablon olacaq, amma arzularımızı yarı yolda qoymadan yaşayaq. Onlara xəyanət etmədən. Hamımızın var. Bu, sabahdan danışdığım arzulardan hamımızın var. Mənim də, sənin də, onun da… Dəyərli oxucum, sənin də arzuların var, önünə çəpər çəkdiyin, başından tapdaladığın arzuların var... Mənim də var. Ancaq, başından basmaq niyyətim yoxdur. Yox etmək, öldürmək fikrim yoxdur. Çoxdur. Birini sizinlə də bölüşə bilərəm. Kəndimizdə – Nəzərlidə böyük bir kitab evinin yaradılmasını istəyirəm. Oğlan, qız, qadın, kişi – hər kəsin kim nə deyər düşüncəsinə tutulub qalmadan daxil olub, kitab oxuya biləcəyi, bir yer… Kitabxana yox, kitab evi. İnsanların maariflənib sosiallaşa biləcəyi bir məkan… Çox şey istəmirəm. Sadəcə toydan və vaydan, virtual dünyadan, çayxana künclərindən başqa bir ünsiyyət məkanının olmasını istəyirəm. Bəlkə də günümüz şərtlərində bu imkansız və ağılsız xəyaldan özgə bir şey kimi görünə bilər. Hamının ağlından kəndin ortasında kimdi belə bir şey edən fikri də dövr edib keçdi. Lakin, mən inanıram. Bu olacaq. Olması üçün bütün həvəsimi, gücümü, bacarığımı, istəyimi sərf edəcəyimə də, bax siz dəyərlilərim önündə söz verirəm. Xəyalıma xəyanət etməyəcəyimə buradan söz verirəm… Lütfən, arzularınızın qanadını zamansız qırmayın… Belə olan halda həyat hər şeyə rəğmən gözəl olacaq… İstəkli qal, oxucum…

**P.S. Bu mövzuda yenə yazacam. Bəlkə də, dönə-dönə.**

Afayət AFİQ

# YENİ TEXNOLOJİ TRENDLƏRİN SƏRGİSİ KEÇİRİLİB

2016-cı ilin yanvar ayının ilk günlərində Las-Veqasda "Consumer Electronics Show" ("CES") beynəlxalq elektronika sərgisi keçirilib.

Hər il təşkil olunan sərgi yeni texnologiyalar sahəsinin yeni trendlərini müəyyən edir. Bu il sərgidə təqdim olunan yenilikləri də ilin trendləri hesab etmək olar.



Sürücüsüz idarə olunan maşınlar avtomobil nəqliyyatının gələcəyidir. Bu sərgidə də əvvəlki illərlə müqayisədə daha çox sürücüsüz avtomobillər nümayiş etdirilib. Yaxın gələcəkdə özü idarə olunan maşınlardan istifadə olunması gerçəkliyə çevrilməkdədir.

Cari ildə virtual reallıq texnologiyaları sahəsində böyük irəliləyiş gözlənilir. Son versiya "CES" sərgisində təqdim edilən "Oculus Rift" virtual reallıq eynəyinin təkmilləşdirilməsi üzrə aparılan işlər davam etdirilir. "Facebook" daxil olmaqla populyar xidmətlər artıq 360 dərəcə formatlı panorama videosunun göstərilməsini dəstəkləyir.

Pilotsuz uçan aparatlara maneələr yaradılmasına (ABŞ və Rusiyada pilotsuz uçan aparatların məcburi qeydiyyatı tətbiq olunub) baxmayaraq, 2016-cı ildə böyük irəliləyiş gözlənilir. Əvvəlki modellərlə müqayisədə yeni modellər daha sürətli və yaxşı manevr etmək qabiliyyətinə malikdir.

Ən böyük axınlı video tədarükçüləri olan "Netflix" və "YouTube" "CES 2016" sərgisinin əsas iştirakçıları olublar. Cari ildə striminq video xidmətləri öz tamaşaçılarını yeniliklərlə sevindirməyə davam edəcək. "Netflix" xidməti 1 yanvar 2016-cı il tarixindən etibarən dünyanın 130 ölkəsində işə salınıb.

Ötən il "ağıllı" ev üçün texnologiyalara aid məhsullar kütləviləşmədi. "Apple" və "Google" şirkətlərinin "ağıllı" ev üçün nəzərdə tutulmuş platformaları smart qurğuları vahid sistem üzrə birləşdirməyi planlaşdırılsa da, bu, hələ qeyri-müəyyən müddətə təxirə salınsa da, cari ildə yeniliklər gözlənilir.

Bir çoxları "Hoverboard" adlı cihazla tanışdır. Maqnit sahəsinin köməyi ilə asfalta toxunmadan uçan bu nəqliyyat növünün təhlükəsizliyi müzakirə mövzusu olsa da, sərgidə bu sahəyə aid yeniliklər nümayiş etdirilib.

"Ağıllı ev" texnologiyalarından fərqli olaraq, personal tibbi qurğular "qızıl dövrünü" yaşayır. Sensorlar, çiplər və simsiz ölçü cihazları real vaxt rejimində müxtəlif fizioloji parametrlərə nəzarət etməyə imkan verirlər.

Hazırladı: Elsevər ELDAROĞLU

# DÜNYANIN ƏN YAXŞI ÖLKƏLƏRİNİN SİYAHISI AÇIQLANIB

Birləşmiş Ştatlar dünyanın ən yaxşı ölkələrinin ilk dəfə tərtib edilmiş siyahısında 4-cü yerlə kifayətlənib. US News and World Report media şirkəti, Pensilvaniya universiteti və qlobal brendinq üzrə BAV məsləhət şirkətinin tərtib etdiyi siyahı Davosda Dünya İqtisadi Forumunun açılışı günü elan edilib.

Siyahıya əsasən, dünyanın ən yaxşı ölkəsi Almaniyadır. İkinci və üçüncü yerlərdə isə Kanada və Britaniya qərarlaşıb.

60 ölkənin reytinqi 24 kateqoriya üzrə və 16 min nəfər arasında sorğu nəticəsində tərtib edilib. Bu qrupda olanların yarısı "məlumatlı elita" kimi qiymətləndirilib, 4500 nəfər isə biznes lideri olub.

Rəyi soruşulanlar hər bir ölkəyə 9 kateqoriya əsasında qiymət veriblər. Buraya macəra, vətəndaşlıq, mədəni təsir, sahibkarlıq, irs, təşəbbüskarlıq, biznesə açıqlıq, siyasi hakimiyyət və həyat keyfiyyəti kimi kateqoriyalar daxildir.

Dünyanın ən yaxşı 10 ölkəsi siyahısında sonrakı yerlər İsveçrə, Avstraliya, Yaponiya, Fransa, Niderland və Danimarkaya qismət olub.

# DÜNYA ƏHALİSİNİN YARISINDAN DAHA VARLI OLAN 62 NƏFƏRİN ADI MƏLUM OLDU

İngiltərənin yardım qurumu olan "Oxfam"ın dərc etdiyi hesabatda 62 milyarderin sərvətinin dünya əhalisinin yarısının sərvətindən (3.5 milyard) daha çox olduğu məlum olub.

"Oxfam" gəlir bölgüsündəki qeyri bərabərliklərlə bağlı hazırladığı hesabatı Davosda keçirilən Dünya İqtisadi Forumunda iştirak edən ölkə liderlərinə təqdim edib.

Varlılarla kasıblar arasındakı gəlir bərabərsizliyinin artmaqda davam etdiyini vurğulayan İngiltərənin yardım təşkilatı "Oxfam" 2016-ci ildə dünya əhalisinin 1 %-nə bərabər olan 70 milyon nəfərin dünyanın geri qalan 99 % əhalisindən, yəni ümumilikdə 7 milyard insandan daha çox sərvətə sahib olacağını dünya ölkələrinin Davosda toplaşan dövlət və hökumət başçılarının yadına salıb.

"Oxfam"ın hesabatına görə, sərvətləri 3.5 milyard insanın sərvətindən daha çox olan 62 nəfərin siyahısına 76,6 milyard dollarla "Mikrosoft"un qurucusu Bill Geyts başçılıq edir. Siyahıda sonuncu olan peyk platforması sektorunda fəaliyyət göstərən Çarles Ergen 13.9 milyard dollar sərvətə sahibdir. Maraqlıdır ki"Oxfam"ın tərtib etdiyi siyahının birincisi də, sonuncusu da ABŞ vətəndaşıdır.

Xatırladaq ki, siyahya düşən 62 nəfərdən 32-si ABŞ-ı təmsil edir. Və onların toplam sərvəti 921 milyard dollardan artıqdır.

# 4 MİLYARD ADAM İNTERNETDƏN İSTİFADƏ EDƏ BİLMİR



Dünya Bankının yeni hesabatına əsasən, dünyada 4 milyard nəfər hələ də internetə çıxışa malik deyil. Hesabat müəlliflərinin fikrincə, qlobal şəbəkədə bu bərabərsizliyin aradan qaldırılması iqtisadi artıma, əhali üçün iş yerlərinin yaradılmasına və xidmətlərin keyfiyyətinin yüksəldilməsinə kömək edə bilər. Məlumata əsasən, son 10 ildə internet istifadəçilərinin sayı 3 dəfə artaraq 3,2 milyard nəfər təşkil edib, ancaq planetin əhalisinin 60 faizi, yəni təxminən 4 milyard nəfər hələ də internetə çıxışa malik deyil. Həmçinin mobil rabitənin sürətli inkişafına baxmayaraq, təqribən 2 milyard nəfər mobil telefonlardan istifadə edə bilmir. Eyni zamanda, təxminən 1,5 milyard nəfər mobil siqnalın əlçatmaz olduğu ərazilərdə yaşayır.

## 10-15 DOLLAR BİR BARREL NEFT ÜÇÜN YAXŞI QİYMƏT SAYILACAQ

Neftin qiymətinin kəskin ucuzlaşması xammal iqtisadiyyatına malik digər ölkələr kimi Rusiyanın da vəziyyətini günbəgün ağırlaşdırır. Və bu ölkədə tanınmış iqtisadçılar, vaxtilə "şok terapiyası" adlanan radikal islahatların aparılmasında iştirak edənlər hökumət rəsmilərindən fərqli olaraq çox bədbin proqnozlar verirlər.

Bu sayımızda Rusiyalı iqtisadçı, 90-cı illərdə sosial müdafiə nazirinin müavini işləmiş, hazırda isə Dünya İqtisadiyyatı və Beynəlxalq Münasibətlər İnstitutunun direktor müavini olan Yevgeni Qontmakerin və tanınmış iqtisadçı, "Sberbank"ın rəhbəri German Qrefin Rusiya iqtisadiyyatının gələcəyi barədə müxtəlif baxış bucağından səsləndirdikləri proqnozları oxucularımızın diqqətinə çatdırırıq.

Yevgeni Qontmakerin fikirləri:



Neftin qiymətinin düşdüyü və dünyada enerji resurslarına tələbatın azaldığı bir dövrdə Rusiyanı "səssiz fəlakət" gözləyir. Rusiya hətta hazırkı sərhədlər daxilində mövcudluğunu saxlasa belə, onunla artıq kimsə hesablaşmayacaq: "Bir də görəcəyik ki, təbii ehtiyatlarımız, ilk növbədə isə neftimiz və qazımız qəpik-quruşa dəyəcək. Fantastika kimi görünən bu versiya, düşünürəm ki, tamamilə gerçək ola bilər. 10 il sonra bir barrel üçün 10-15 dolları biz çox yaxşı qiymət sayacağıq. Çünki onlara tələbat olmayacaq" – Qontmaker deyir.

"Bizdə «fəlakət» deyəndə, ölkənin süqutunu, yaxud insanların küçələrə çıxması və vətəndaş müharibəsinin başlanmasını təsəvvür edirik. Amma zənnimcə, bizi bundan daha pisi – "səssiz fəlakət" gözləyir. Biz xəritə üzərində əvvəlki sərhədlər daxilində mövcudluğumuzu saxlasaq və nüvə dövləti olaraq qalsaq da, bizə xüsusi əhəmiyyət verən, bizimlə hesablaşan olmayacaq".

İqtisadçının sözlərincə, Rusiya həmişə SSRİ-nin xiffətini çəkib. O SSRİ-nin ki, ikinci superdövlət kimi ABŞ-la rəqabət aparırdı. O vaxtdan statusun və təsirin itirilməsi prosesi gedir: «Əgər biz strateji məsələlərlə məşğul olub dərin islahatlar aparmasaq, bu proses davam edəcək. Həmin islahatlar Yeqor Qaydarın 90-cı illərdəki islahatlarından heç də az radikal olmamalıdır».

"Ancaq bu islahatları daha əvvəl – 2005-2007-ci illərdə, neft və qazın qiyməti yüksələn vaxtı etmək lazım idi", -- deyə Qontmaker bildirir: "İndi isə həmin islahatları həyata keçirmək mümkün deyil. Çünki lazımi ehtiyatımız, sosial "yastığ"ımız artıq yoxdur. Ən vacib islahatlardan biri vergilərə, xüsusilə də kiçik və orta biznes üçün vergilərə yenidən baxmaq, sosial vergiləri azaltmaq olmalıdır. Lakin bu, büdcə fondu üçün itki demək olacaq. Pensiyalar və sosial təqaüdlər isə, bildiyimiz kimi, məhz bu fonddan ödənilir, səhiyyə bu fonddan maliyyələşdirilir".

Ekspert deyir ki, sosial ehtiyat olsaydı, azalan büdcə gəlirlərini hansısa müddətə həmin vəsaitlə əvəz etmək olardı: «Amma bu gün belə vəsaitimiz demək olar ki, yoxdur, olan-qalanı da büdcəni yamamağa sərf edirik. Bu il neftin barrelinin orta qiyməti 30-35 dollar civarında olsa, Ehtiyat Fondumuz elə bu il tükənəcək. Qalacaq Milli Rifah Fondu, lakin o da bütünlüklə investisiya layihələri üçün bölüşdürülüb. Bizim xalqımız sosial öhdəliklərin azalmasına hazır deyil. Bu da illər boyu öz vədləri ilə xalqın başının altına yastıq qoyan Putinin xidmətidir. Onun pulları sağa-sola xərclənməsi iqtisadi islahatlardan deyil, populist siyasətindən irəli gəlirdi".



German Qrefin proqnozu:

"Bu gün deyə bilərik ki, bu era artıq keçmişdədir. Necə deyərlər, daş dövrü ona görə başa çatmayıb ki, daş qurtarıb. Neft əsri də, eynən beləcə, artıq bitib. Mən bilmirəm, bəlkə bir 10 il, bütün elektromobil infrastrukturu lazımi səviyyəyə gəlib çatana qədər onun qalıqları qalacaq... Mən ilk dəfə "Tesla" avtomobilinin sükanı arxasına keçəndə anladım ki, gələcək həmişəki kimi çox tez gəlib. Biz artıq o gələcəyin içindəyik. Cənablar, welcome to the future" – Qref bildirib.

Qref Çində bərpa oluna bilən energetikanın inkişafını nümunə göstərib. Çin hazırda dünyada ənənəvi enerji mənbələrinin ən böyük istehlakçısıdır. O, Çində külək, günəş, su və bioloji mənbələrdən əldə edilən enerjinin ümumilikdə 560 geqavatt olduğunu və bu rəqəmin Rusiya Federasiyasında istehsal olunan enerjinin ümumi həcmindən 2,5 dəfə çox olduğunu vurğulayıb.

German Qref iddia edir ki, Rusiya öz iqtisadiyyatını dünya reallıqlarına uyğunlaşdırmaq prosesində uduzub və beləliklə də "daunşifter" ölkələr sırasına düşüb.

"Səmimi danışmaq lazımdır, biz rəqabəti uduzmuşuq. Və bu texnoloji quldarlıqdır... Vaxtında adaptasiya oluna bilmiş və bu sahəyə investisiya qoymuş ölkələr bu gün qalibdirlər. Öz iqtisadiyyatını, bütün sosial sistemi və bütün təsisatları adaptasiya edə bilməmiş ölkələrsə güclü şəkildə uduzacaqlar. Aradakı uçurum keçən sənaye inqilabı zamanı olduğundan böyük olacaq," – deyə Qref bəyan edib.

Hazırladı: Hacı BƏKİROĞLU

## BORÇALI BUTAFORİYASI
### (DEBÜT)

**Allahın yaratdığı bütün yemlikli, yovşanlı, ya da yelkənli yerlər kimi Borçalı Süsən-Sünbülündə də boşqab dibi yalayanlar həmişə olub. Misilləmə misal üçün, bir də görürsən ki, həmin boşqab dibi yalayanların biri özündən otuz yaş kiçik olan gənc mirzələrin birinə "Dədə" deyə müraciət edir.**

"Dədə" demiş... Borçalı Süsən-Sünbülündə son vaxtlar əslində sadəcə olaraq "ata" anlamını verən "dədə"yə ali titul-rütbə kimi baxanların heç də sağlam idman mübarizəsi şəraitində keçməyən yarışı gedir. Belə ki, Dədə Vasifin 1111 səhifəlik "Mənim ailə şəcərəm" adlı kitabına Dədə Asiflə Dədə Ağasif "Bizim ailə şəcərəmiz" adlı 2222 səhifəlik cavab kitabı yazdılar.

Bir dəfə üç ayda bir yol nəşr olunan yerli "Çapovulçu" qəzetində hər iki kitabın müəllifinə həsr edilmiş yarısərxoş yazıda "maestro müəlliflər"ə ünvanlanan "Dədə Asif", "Dədə Vasif" və "Dədə Ağasif" xitabları "Gədə Asif", "Gədə Vasif" və "Gədə Ağasif" şəklində getmişdi. Borçalıda elə hidrobioloji həngamə qopdu ki, hətta Hələb "həngamələr"i bunun yanında bir heçdi!.. Cəmi üç gün sonra "Dədə Vasif" çatlayıb ölmüşdü. "Çapovulçu"nun redaktoruna tammetrajlı töhmət vermişdilər, məsul katibə kinopanoram küfrlər yağdırmışdılar, amma Süsən-Sünbül tərəflərdə "Dədəyevçilik"-"Dədəyevşina" (İvanovo ruslarının "dedovşina"sı ilə qarışdırma!) bitib-tükənəndimi?..

Mirzə Qələm iddia edir ki, bunların hamısı arada-sırada bərli-bəzəkli danışmaq, bərli-bəzəkli də yazmaq həvəsinin həddən ziyadəliyi səbəbindən baş verir.

İl meymun ili olduğu üçün bu yerdə misilsiz "Kəlilə və Dimnə"dən bir nümunəni xatırladıram: "Meymun dedi: – And içirəm tacınıza... qüdrətim olsaydı başımı Sizə qurban verərdim".

Boşqab dibi yalayana yüz də Allahın Peyğəmbərinin (s.a.s) kəlamı ilə de ki, "Allah öz dili ilə inək kimi oynayan – söz oynadan – bəlağətli şəxsə nifrət edir", yenə öz zinətindən-zinasından, bərbəzəyindən, unudulmaz Çexov demiş, "pakazuxa"sından qalmayacaq!

Mirzə Qələm bunu da iddia edir ki, bəs deməzsənmi, bu üstü bəzək – içi təzək halların həmisi psixologiyadakı rol nəzəriyyəsindən irəli gəlir. Yəni Şekspir misallı, dünyanı – bizim natəvan nümunədə isə Süsən-Sünbülü – teatra bənzətsək, onda görərik ki, Dədə Asifin də, Dədə Vasifin də (Allah rəhmət eləsin!), Dədə Ağasifin də rol repertuarı elə böyükdür ki, bircə gündə 6-7 (!) rolda çıxış edə bilirlər. Hamısı da bir-birindən bərlibəzəkli, bir-birindən şumal və şümşad!..

Amma öz aramızdır, Mirzə Qələmə çox minnətçi düşürəm ki, az-az arazbarı özünün psixoloji uyuşmasına da fikir versin: yəni bəni-adam olan Dədə Asifə də, Dədə Vasifə də, Dədə Ağasifə də qanı qaynamasa da, sözü tutmasa da öz xarakterini, temperamentini toparlasın! Axı Allahın altı həmişə böyükdür və altında da hamıya yer var; o cümlədən, dədələrə də, gədələrə də...

Mirzə Qələm bu teatra bənzəyən dünyada (və Süsən-Sünbüldə) günahın temperamentdə deyil, xarakterdə olduğunu söyləyərək mənə bu teatr dünyanın butaforiya tərəfindən danışır.

...İtalyan əsilli butaforiya ("buttafuori") teatr tamaşaları üçün lazım olan ləvazimatı nəzərdə tutur və butafor da səhnə ləvazimatını hazırlayan ustaya deyilir. Amma bu sözün bir məcazi mənası da var imiş ki, bu da – hələ yuxarıda da işarə etdiyim kimi – zahiri bər-bəzək, saxta cah-cəlal anlamını verirmiş.

Sən demə, Mirzə Qələmi incidən də elə "dədələr"in sözün həqiqi mənasından çox, məcazi mənasından yapışıb yaşamalarıdır! Bər-bəzəyə, bəlağətə bu dərəcədə uymalarıdır!

Burası da var ki, Borçalı Süsən-Sünbülündə "Dədə görməyib, elə bilir ki, Şahqulu da bir dədədir" atalar sözü mənasında, "Dədə"yə münasibət də dəyişməyə başlayıb. Necə ki, "əmiroğlu" ("əmirzadə") anlamını verən "Mirzə" sözü şəxs adından sonra – məsələn, Abbas Mirzə – gəldikdə şahzadəlik, əvvəl gəldikdə isə – məsələn, Mirzə Səfər – rütbə bildirir, eynən həmin oxşar minvalla buralarda da "dədə" həm mənsəb-mərtəbə-rütbə, həm də təxəllüs bildirməyə başlayıb: məsələn, Yasif Dədə, Yusif Dədə; bu da "stajlı dədələr"in ciddi narazılığına səbəb olur.

...Bu yerdə Mirzə Qələm iddia edir ki, Dədə Qorqud kimi ulu Dədəsi olanların özlərinə təzə Dədə gəzib axtarmaqları, "Dədələr"ə pürxumar poemalar, telli "trilogiyalar" yazmaqları vaqiflərdə hər dəfə necə acı gülüş doğurmasın?

Yeri gəlmişkən, bu məzmunda unudulmaz Bəxtiyar Vahabzadə də xoşniyyət xəbərdarlıq edibmiş...

...Mənə qalınca, mən bəni-adamlar arasında yaranan ixtilaflardan hər dəfə uzaq gəzib-dolanmağa çalışıram.

P. S.

Dünən Mirzə Ağasif iddia edirmiş ki, guya Mirzə Qələm dilimizin özləşmə meyillərinə qarşı çıxır, guya "dədələr"in dilimizi etnik yaddaşına qaytarmaq cəhdinin önünü kəsir. Belə ki, Dədə Ağasifə görə, tərkibində "bol" hissəsi olan "futbol" sözü də, "buta" hissəli elə bu başa bəla "butaforiya" da – manşırladığı digər saysız-hesabsız sözləri demirəm; ayıbdır – alınma sözlər yox, bizim sözlər imiş.

Mirzə Qələm bunu da iddia edir ki, Borşalı Süsən-Sünbülündə bu qədər orfoqrafiya və sintaksis odunçusunun olduğunu heç akademik N.N.N. da bilmirdi.

**Burası da var: bir halda ki, Romanın, Parisin, Qahirənin, Varşavanın ("var" hissəsini Dədə Ağasif görməsin) butaforiya tərəfi var, o halda bizim niyə olmasın? Məgər Barselonaya yaxın adına biabırçılıq deməzdilərmi?..**

İBRAHİMXƏLİL

## RUSİYA TÜRKİYƏNİN HAVA SƏRHƏDİNİ YENƏ DƏ POZUB

Pentaqon Rusiyanın döyüş təyyarəsinin Türkiyənin hava məkanını pozmasına dair Ankaranın bəyanatını təsdiqləyib.

Bu barədə ABŞ Müdafiə Nazirliyinin nümayəndəsi Mark Rayt RİA "Novosti" agentliyinə bildirib.

M. Rayt Rusiya və Türkiyəni eskalasiyanın qarşısını almaq üçün danışıqlar aparmağa çağırıb.

"Rusiya döyüş təyyarəsinin yanvarın 29-da Türkiyə və NATO-nun hava sərhədini pozması barədə məlumatlardan xəbərdarıq və bunu təsdiq edirik. Əvvəlki insidentlərdən sonra da bəyan etdiyimiz kimi, ABŞ da NATO kimi bu məsələdə Türkiyə ilə həmrəydir və biz Rusiyanı Türkiyənin hava məkanına hörmət etməyə, regionda qeyri-stabilliyə səbəb olan əməllərdən çəkinməyə çağırırıq. Rusların və türklərin eskalasiyanın qarşısını almaq üçün danışıqlar aparması vacibdir", - M. Rayt qeyd edib.

Rusiya Hərbi-Hava Qüvvələrinə məxsus SU-34 qırıcı təyyarəsi yanvarın 29-da Suriya istiqamətindən Türkiyənin hava məkanını pozub. Rusiya təyyarəsinin heyətinə rus və ingilis dilində dəfələrlə xəbərdarlıq edilib.

İnsidentlə əlaqədar Rusiyanın Ankaradakı səfiri Türkiyə XİN-ə çağırılıb, ona etiraz notası təqdim olunub.

"Türkiyə hava məkanının pozulmasına görə ortaya çıxa biləcək arzuolunmaz halların məsuliyyəti tamamilə Rusiyanın üzərinə düşəcək. Bu, Rusiyanın iki ölkə arasında böhranın daha da dərinləşməsini istəməsinin aşkar göstəricisidir", - deyə XİN-in bəyanatında bildirilir.

Rusiya Müdafiə Nazirliyi isə Türkiyə tərəfinin iddialarını rədd edib.

# HƏYATIMIZDAKI MƏNƏVİ BOŞLUQLAR

**Hər şeyin onun ətrafında şəkilləndiyi insan, maddi və mənəvi olan iki cəbhəyə malikdir. Dünya həyatı ruhun maddəyə bürünməsiylə şəkilləndiyi üçün maddi tərəf önə çıxır, mənəvi tərəf olan ruha diqqət yetirilmədiyindən, əslindən uzaqlaşan insanlıq korlanmağa başlayır. Özündən uzaqlaşan insan, bunu stress və böhran olaraq hiss etdiyi halda, kənardan baxanda bu vəziyyətin mənəvi korlanmadan ibarət olduğu aydın görünməkdədir.**

Günümüzdə insan, həqiqəti tanımağa səy göstərib, mənəvi dəyərləri inkişaf etdirmədiyi üçün özünü mənəvi böhran, qərarsızlıq və ya korlanma içində tapmaqdadır. İlahi imza və rəhbər olan fitrət, əslində mənəvi dəyərləri qəbul etməyə uyğundur. Bu mənada iman, əməl və ixlas insanın mənəvi inkişafı üçün lazımlıdır. Amma çoxları bunun fərqində belə deyil.

Dinimizdə maddi cəhalət qınandığı kimi, mənəvi cəhalət də qınanır. Maddi cahillik, karyera həyatını məhv etdiyi halda, mənəvi cahillik, dünyada korlanmağa və axirətdə əbədi xoşbəxtlikdən məhrumiyyətə səbəb olur.

Cəhalət, öyrənmə ehtiyacının bitdiyi nöqtədə başlayır. Cəmiyyətimizdə kitab və qəzet oxuma nisbətinin son dərəcə aşağı olmasına baxmayaraq, dedi-qodulu qəzetlərin və proqramların böyük rəğbət görməsi, vaxtın heç bir şey qazandırmayan seriallara və faydası olmayan işlərə xərclənməsi bu qayəsizliyin və pozulmanın nəticəsidir.

Əsl təhlükə isə, inananların bir çoxunun dünyanın gerçəklərindən "bixəbər" olmasıyla bərabər, "batil" və insanlıq üçün "zərərli" olan düşüncələri müdafiə etmələridir. Çünki bir tərəfdə insanlara zərər verəcək düşüncələrin öndərləri və müdafiəçiləri, digər tərəfdə isə qarşısındakı təhlükənin fərqində olmayacaq qədər boş və "hara çəksən ora gedən" bir insan izdihamı var. Bu vəziyyət, müəyyən dəyərlərə inanan və bu dəyərlərin mühafizəsi üçün cəhd göstərən şəxs və cəmiyyətlərin gələcəyi üçün təhlükəlidir.

Fırıldaqçılıq, rüşvət, sui-istifadə, fahişəlik, narkotik maddələrə aludəçilik, ədalətsizlik və daha bir çox bəlanın təməl səbəbi, cəmiyyətin ümumi əxlaq quruluşunda yaranan pozulmalar və çökmələrdir. Allahın əmr etdiyi gözəl əxlaqın yaşanmamasından qaynaqlanan bu pozulma, cəmiyyətlərə mənfi istiqamətdə təsir etməkdədir.

Gündəlik həyatın hər sahəsində bunun nümunələrinə rast gəlmək mümkündür. Dindən uzaq bir şəkildə axirət həyatını düşünmədən yaşayan insanlar, həyatları boyunca daha çox dünyəvi mənfəət əldə etmə ehtirası içində olduqları kimi, ətraflarındakı insanlara da bu istiqamətdə təlqində olur, onları da Allahın sərhədlərini tanımadan yaşamağa təşviq edirlər.

İlahi Rəhbərimiz Qurani Kərim: *"Allahın buyruqlarını əhəmiyyətsiz hesab edən bu insanların öz seçimləri ilə etdikləri işlər üzündən quruda və dənizdə (bütün dünyada) pozuqluq ortaya çıxdı, nizam pozuldu. Doğru yola və məqsədəuyğun tutuma dönmə fürsəti vermək üçün, Allah, etdiklərinin bəzi pis nəticələrini onlara daddırar"* (Rum, 30/41) ayəsilə müsibətlərdən ibrət götürmək lazım olduğuna işarə etməkdədir. *"Şübhəsiz Allah, insanlara heç bir şeylə zülm etməz. Ancaq insanlar, öz nəfslərinə zülm edirlər"* (Yunus, 10/44) ayəsində də dindən uzaqlaşmaqla insanların ancaq özlərinə zərər verdiklərinə diqqət çəkilməkdədir.

Müsəlmanın həyatının ilahi iradə istiqamətində şəkillənməsində Quran və sünnə birinci dərəcəli rol oynayır. Bunun belə olduğunu, həm Peyğəmbərə itaəti əmr edən Qurani Kərim, həm də Hz. Peyğəmbərin şəxsən özü ifadə etməkdədir.

Qurani Kərimdə belə buyurulmaqdadır: *"De ki: Allahı sevirsinizsə, mənə uyun ki, Allah da sizi sevsin və günahlarınızı bağışlasın"* (Ali İmran, 3/31). *"Allaha və qiyamət gününə qovuşacağını ümid edənlər üçün Allahın Rəsulunda gözəl bir nümunə vardır"* (Əhzab, 33/21).

Hz. Peyğəmbər (s.ə.s.) isə belə buyurmaqdadır: *"Kim mənim sünnəmdən (həyat tərzimdən) üz çevirsə məndən deyil"* (Buxari, Nikah 1; Müslim, Nikah 5). *"Dinin əldən çıxışı sünnənin tərk edilməsi ilə başlar. Kəndir, necə lif-lif qopub parçalanırsa, din də sünnənin bir-bir tərki ilə ortadan qalxar"* (Darımı, Müqəddimə 16). Bu ayə və hədislər, müsəlmanların ancaq sünnəyə sarılmaq və ondan ayrılmamaq surətilə İslami şəxsiyyətlərini qoruya biləcəklərini ifadə etməkdədir. Əks halda korlanma və mənəvi çökmə qaçılmaz olar.

Valideynlərinin razılığını almadan işləyən və bir il boyunca ata-anasını axtarmayan insanlar, analar günündə bir çiçək göndərməklə, övladlıq vəzifələrini yerinə yetirdiklərini sanırlar.

Müsəlmanın pozulmasını önləyəcək olan sünnə, qısa bir izahatla "İslam mədəniyyəti" deməkdir. Çünki sünnənin tərk edilməsilə doğulacaq boşluq, sünnənin tam ziddi olan bidətlə doldurulmaqdadır. Bidət isə, İslam mədəniyyətinə tərs düşən, onda yeri olmayan, lakin ondanmış kimi görülməyə və göstərilməyə çalışılan xarici ünsür deməkdir. Bu nöqtədə dini təhsil lazımınca verilmədiyindən, insanlar daha cazibədar görünən xurafatlara özlərini qapdırmaqda və işin daha acı tərəfi odur ki, bunu da bir dindarlıq kimi qəbul etməkdədirlər.

**Müsəlman şəxsiyyəti və dindarlıq Quran və sünnə ilə şəkillənər, onunla yaşar. Pozulma isə bu iki dəyərdən uzaqlaşmaqla başlar. Əslindən uzaqlaşan şəxs və cəmiyyətlər mənəvi çökməyə uğrayar. Bunu da maddi çökmə izləyər. Kökündən bəslənməyən heç bir ağacın meyvəsi olmaz. Tarix bunun şahididir.**

Hacı BƏKİROĞLU

# ŞƏMS TƏBRİZİNİN ÜÇ SUALA BİR CAVABI

Bir gün Mövlanə Cəlaləddin Ruminin yanına bir qrup fəlsəfəçilər gəlib ona sual vermək istədiklərini bildirdilər. Mövlanə onları Şəms Təbrizinin yanına göndərdi. Bu vaxt Şəms Təbrizi məsciddə, tələbələrinə kərpiclə necə təyəmmüm etməyi göstərirdi. Gələn fəlsəfəçilər ondan üç sual soruşmaq istədiklərini bildirdilər. Ş. Təbrizi “sualınızı verin!” – dedi. Fəlsəfəçilərin öz içlərindən biri başçı seçilib, o da sualları verməyə başladı: “Deyirsiniz ki, Allah var, amma görünmür, onu bizə göstərin, biz də inanaq.” Ş. Təbrizi “O biri sualınızı da verin!” – dedi. O, “Şeytanın atəşdən yaradıldığını söyləyərsiniz, sonra da ona Cəhənnəmdə odla əzab ediləcək deyirsiniz. Heç atəş də atəşə əzab edərmi?” – dedi. Ş. Təbrizi yenə də: “Yaxşı, o biri sualınızı da verin!” – dedi. “Axirətdə hər kəs haqqını qazanacaq, yəni, etdiklərinin cəzasını çəkəcək. Buraxın insanları canları nə istəyirsə etsinlər, qarışmayın!” – dedi. Bunun cavabında Ş. Təbrizi, əlindəki quru bir kərpici həmən adamın başına vurdu. Sual verən fəlsəfəçi, dərhal gedib qazıya şikayət etdi. Və “Mən, sual soruşdum, o isə başıma kərpic vurdu.” – dedi. Ş. Təbrizi isə “Mən ona yalnız cavab verdim.” – dedi. Qazı bu işin şərhini istədi. Ş. Təbrizi qazıya vəziyyəti belə izah etdi: “O, mənə Allah-təalanı göstər, inanım dedi. İndi bu fəlsəfəçi, başının ağrısını göstərsin görək.” O “Ağrıyır amma göstərə bilmirəm.” – dedi. Ş. Təbrizi “Bax Allah-təala da vardır, lakin görünməz. Yenə mənə, şeytana odla necə əzab ediləcəyini soruşdu. Mən bunu torpaqla vurdum. Torpaq onun başını ağrıtdı. Halbuki onun öz bədəni də elə torpaqdan yaradılıb. Yenə mənə “Buraxın insanları canları nə istəyirsə etsinlər, qarışmayın!” – dedi. Mənim canım da onun başına kərpici vurmaq istədi və vurdum. Bəs nə üçün o haqqını axtarır? Bu dünyada hər kiçik bir məsələ üçün haqq axtarılırsa, o sonsuz olan axirət həyatında nə üçün haqq axtarılmasın?” – deyə bildirdi.

Hazırladı: Rəsul SÜLEYMAN

# GÜRCÜSTAN AVTOQƏZALARDA BAŞ VERƏN ÖLÜM HALLARINA GÖRƏ DÜNYA LİDERLƏRİNDƏN BİRİDİR



Gürcüstan xarici işlər nazirinin müavini Şalva Xutsişvili bəyan edib ki, avtomobil qəzaları nəticəsində Gürcüstanda ildə ortalama 600-dək adam həlak olur, bu isə dünyadakı ən yüksək göstəricilərdən biridir.

“Bu göstərici Avropa ilə müqayisədə bizdə daha pisdir. Ölüm hallarına görə Gürcüstandan yalnız Rusiya və Ermənistan irəlidədir. Bunun üzərinə ekspertlərin səsləndirdiyi və turizmə, Gürcüstanın tranzit roluna çox mənfi təsir edən müxtəlif növ riskləri də əlavə etmək olar” – nazir müavini bildirib.

Avtomobillərin hərəkəti ilə bağlı olan problemlərin tənzimlənməsi üçün daxili işlər nazirliyi qanunvericilik lahiyəsi hazırlayaraq, deputatların müzakirəsinə təqdim edib. Qanun layihəsi sükanı sağda olan avtomobillərin qeydiyyatının qadağan olunmasını, cərimələr sisteminin sərtləşdirilməsini, köhnə avtomobillər (9 ildən çox) üçün gömrük vergisinin artırılmasını, yenilər üçün isə azaldılmasını nəzərdə tutur.

Bundan əlavə, hökumət ölkəyə motosikl və mopedlərin idxal olunmasını stimullaşdıran tədbirlər görməyi planlaşdırır.

# 2015-Cİ İLDƏ QUBERNATORLARIN OFİSİNDƏ MÜKAFAT VƏ ƏMƏK HAQQINA ƏLAVƏLƏR ŞƏKLİNDƏ 1 114 928 LARİ VERİLİB

“Beynəlxalq şəffaflıq – Gürcüstan” qeyri-hökumət təşkilatı bölgə administrasiyalarında 2015-ci ildə əmək haqqına əlavələr və mükafatlar barədə məlumat yayıb. QHT-nin araşdırmasına görə, quberniya administrasiyalarında əmək haqqına əlavələr və mükafatlar şəklində 1 114 928 lari, o cümlədən 463 817 lari mükafat, 680 111 lari əmək haqqına əlavələr verilib.

2012-2014-cü illərlə müqayisədə mükafatların həcmi və tezliyi azalsa da, 2015-ci ildə əmək haqqına əlavələrin verilməsi göstəricisi xeyli artıb.

2015-ci il ərzində əmək haqqına əlavə bütün bölgə administrasiyalarında hər ay verilib.

Vəzifəli şəxslərə verilən mükafat və əmək haqqına əlavələr barədə məlumatı yalnız Raça-Leçxumi və Kvemo Svaneti, eləcə də Quriya bölgə administasiyalarından almaq mümkün olmuşdur. Digər administrasiyaların məlumatlarında il ərzində mükafat və əmək haqqına əlavələr şəklində verilən məbləğin ümumi miqdarı əks olunub.

2015-ci ildə mükafatlar şəklində 63 960 lari həcmində ən böyük məbləğ Raça-Leçxumi və Kvemo Svaneti bölgə administrasiyasında verilib.

2015-ci ildə əmək haqqına əlavələr şəklində 167 712 lari həcmində ən çox vəsait Sameqrelo-Zemo Svaneti bölgə administrasiyasında verilib. Mükafat və əmək haqqına əlavələr göstəricisinə görə də 204 769 lari ilə Sameqrelo-Zemo Svaneti bölgə administrasiyası birincidir.

2015-ci ildə Raça-Leçxumi və Kvemo Svaneti qubernatoru Parmen Marqvelaniyə əmək haqqına əlavə şəklində 35 400 lari, mükafat kimi isə 2 950 lari köçürülüb (ümumi məbləğ 38 350 lari).

2015-ci ildən Quriya qubernatoru olan Qiya Salukvadze əmək haqqına əlavə kimi 22 668 lari, mükafat şəklində isə 2 950 lari alıb.

2015-ci ilin mayınadək Quriya qubernatoru vəzifəsini icra edən, Quriya qubernatorunun müavini Ketavan Moistrapişviliyə 2015-ci ildə əmək haqqına əlavə şəklində 12 732 lari, mükafat kimi 2 360 lari verilib.

“Beynəlxalq şəffaflıq-Gürcüstan”nın qiymətləndirməsinə görə, dövlət səlahiyyətli qubernator administrasiyalarının ayrı-ayrı vəzifəli şəxslərinin əmək haqlarına əlavələr əsaslandırılmadan verilir ki, bu da əlavələrin verilməsi prinsipini pozur.

# ALXAN QASIMOV:“XƏSTƏLİKLƏRİN QARŞISININ ALINMASI ONUN MÜALİCƏSİNDƏN ASANDIR”

***Müsahibimiz Qardabani rayonun Nəzərli kənd ambulatoriyasının baş həkimi Alxan Qasımovdur. Əməkdaşımızın ixtisasca ailə həkimi olan Alxan Qasımovla qış mövsümündə geniş yayılan xəstəliklər, o cümlədən də insanları qorxu altında saxlayan “Donuz qripi” barədə söhbəti oxucularımıza təqdim edirik.***



A. Ə. – Xəstəliklərin hamısı bu və ya digər dərəcədə insan orqanizimi üçün təhlükə mənbəyidir, amma elə xəstəliklər var ki, daha təhlükəli olur. Qışda belə tipik xəstəliklər olurmu? Olursa əlamətləri nədir? Donuz qripi ilə bağlı cəmiyyəti maarifləndirməyə ehtiyac varmı, yoxsa bu, boş hay-küydürmü? Bu xəstəlik qripin digər növlərindən hansı əlamətləri ilə fərqlənir?

A. Q. – Qış mövsümünün gəlməsi, soyugların düşməsilə əlaqədar bölgəmizdə və ölkəmizdə çox yayılmış daha təhlükəli xəstəlik bu günkü gün üçün "Donuz qripi"dir. Gürcüstan səhiyyə naziri David Sergeonkonun ölkə üzrə təcili yardım həkimlərinə, ailə həkimlərinə verdiyi göstərişlər (Moh/gov/ge 20.01.2016.), bələdiyyə işçilərinin bu işə yardıma cəlb olunması, əhalinin maarifləndirilməsi donuz gripilə əlaqədar vəziyyətin ciddiliyi ilə bağlıdır. "Donuz qripi" bu xəstəliyin şərti adıdır, törədicisi donuz qripi virusudur.

Bu xəstəliyə ilk dəfə Meksikada donuz fermasının yaxınlığında yaşayan oğlan uşağında təsadüf edildiyindən bu cür adlandırılmışdır. İlk dəfə 2009-cu ildə qeydə alınıb. Əsasən donuzlar və insanlar yoluxur, başga heyvanların da yoluxma ehtimalı var. Virusun insana heyvandan yoluxub xəstəlik törətmə ehtimalı azdır, xəstəlik insana əsasən insandan hava-damcı yolu ilə yoluxur. Xəstəliyin ilkin əlamətləri yüksək hərarət, baş ağrıları, öskürək, zökəm, ürəkbulanması, qusma, qarın ağrıları və sairdir. "Donuz qripi" qripin digər növlərindən yüksək yoluxuculuq əmsalına, gedişinin ağır olmasına görə fərqlənir, xüsusən şəkər, vərəm, xroniki ürək-damar, ağciyər, nəfəs yolları və s. xəstəlikləri olan insanlar üçün daha təhlükəlidir.

A. Ə. – Bəzən insanlar imkansızlıqdan, bəzən də başısoyuqluq edərək, bu və ya digər xəstəliklərə yoluxduqda həkimə müraciət etmirlər, xalq təbabətindən müəyyən bir vasitə kimi istifadə edərək, müalicə olunmağa cəhd edirlər. Fikrinizcə, bu, nə dərəcədə doğrudur?

A. Q. – Yaşından asılı olmayaraq xəstəliyə yoluxmuş hər bir insana məsləhətdir ki, birinci növbədə ailə həkiminə (sahə həkiminə) müraciət etsinlər, çünki həkim xəstəliyin ağırlıq dərəcəsini müəyyənləşdirəcək, uyğun müalicə təyin edəcək və ən mühümü isə xəstəni nəzrət altında saxlayacaqdır. Xəstənin özünü müalicəyə əl atması düzgün deyil, ağır fəsadlara gətirib çıxara bilər. İlkin mühüm müalicə tədbirləri: yataq rejimi, çoxlu ılıq maye qəbulu, düzgün qiadalanma, alkaqol və tütündən müvəqqəti də olsa imtina etmək, istiliksalıcı dərman preparatlarından istifadə etmək, ən mühümü həkim nəzarətində olmaq. Xalq təbabətindən istifadə etmək də yalnız həkim nəzarəti altında olduqda müəyyən fayda verə bilər.

A. Ə. – Şərti olaraq qış xəstəlikləri adlandırdığımız zökəm, qrip, soyuqdəymə kimi xəstəliklərdən xilas olmaq üçün qidalanmanın nə dərəcədə rolu var? Ənənəvi milli mətbəximizin nailliyyətlərindən bu məqsədlə istifadə etmək nə qədər effektiv təsirə malikdir?

A. Q. – Milli mətbəximizə məxsus ənənəvi yeməklərə istinadən qidalanma müalicənin tam aparılması demək deyil, yalnız müalicə prosesinə kömək edən yardımçı vasitələrdən biridir. Yuxarida də qeyd etdiyimiz kimi, düzgün qidalanma xəstəliklərdən qorunmağın ilkin şərtlərindən biridir. Sağlamlığı qorumağın yollarından biri də, təbii qida məhsullarından istifadə etmək, geni dəyişdirilmiş ərzaq məhsullarından imkan daxilində imtina etməkdir.

A. Ə. – Mətbuatda tez-tez müxtəlif xəstəliklərdən qorunmaq üçün məsləhətlər, hətta konkret xəstəlik üçün reseptlər təklif olunur. Onlara inanmaq nə dərəcədə doğrudur? Həkim məsləhəti olmadan bu cür təkliflərdən istifadə etməklə xəstəliyi el dilində deyildiyi kimi"azdırmırıqmı"?

A. Q. – Bəzən mətbuatda sensasiya xarakterli məlumatlar verilir və onu oxuyan insanlar da inanaraq, bu məlumatlarda təklif olunan metodlarla müalicə olunacaqlarını düşünürlər. Ancaq istənilən halda mütəxəssis rəyi ilə hesablaşmaq lazım gəlir. Hər deyilənə inanmaq, buna əməl etmək doğru seçim deyil. Xəstəliklərin qarşısının alınması onun müalicəsindən asandır. Hər bir xəstəliyin qarşısının alınması əksər hallarda mümkündür. Donuz qripinin qarşısının alınması üçün müxtəlif vasitə və yollar mövcuddur. İlk növbədə evdə, ictimai yerlərdə qoruyucu ağız-nəfəs maskalarından istifadə etmək lazımdır. Xəstələrin öz sağlamlıqları üçün, eləcə də başqa insanları yoluxdurmamaları üçün onların yataq rejimində olmalarını təmin etmək faydalıdır. Xəstələrin istifadə etdikləri qab-qacağı 75-100 dərəcə isti xlorlu suda yumaq və onları ailə üzvlərinin istifadəsində olan əşyalardan ayrı saxlamaq tələb olunur. Belə olan halda bu yolxucu xəstəlikdən müəyyən qədər qorunmaq mümkündür. İstənilən xəstəlikdən qorunmaq üçün vətəndaşlarımız şəxsi gigiyena qaydalarına riayyət etməlidirlər. Səhər idmanı ilə məşğul olmaq, düzgün qidalanmaq, normal istirahət, yuxu rejiminə əməl etmək istər qış, istər də ilin digər fəsillərində faydalıdır.

A. Ə. – Həkim, müsahibəyə görə, ən ümdəsi isə dəyərli məsləhətlərinizə görə təşəkkür edirik.

Söhbətləşdi: Afayət ƏLİYEVA

# GÜRCÜSTANDA NİKAHA DAXİL OLANLARIN SAYI AZALIR

Gürcüstanda əvvəlki illə müqayisədə 2015-ci ildə bağlanmış nikahlar 7,1% azalıb.

Gürcüstan Ədliyyə nazirliyinin Dövlət xidmətinin inkişafı agentliyindən bildiriblər ki, 2015-ci ildə 29 277 nəfər nikah bağlayıb.

2014-cü ildə isə 31 526 cütlük nikaha daxil olmuşdu.

2014-cü ildə qadınlar əsasən 25-29 yaşlarında ailə qurublar, kişilər isə 20-24 yaşlarında nikaha daxil olmağa üstünlük veriblər.

Demoqrafik vəziyyətə gəlincə, 2015-ci ildə Gürcüstanda 59 231 uşaq doğulub. 2014-cü ildə isə bu göstərici 60 635 nəfər olub.

# TBİLİSİDƏ H1N1 VİRUSUNDAN İLK ÖLÜM HADİSƏSİ QEYDƏ ALINIB



Tbilisidə yanvarın 17-də H1N1 virusundan, yəni “donuz qripi”ndən bu il birinci ölüm hadisəsi qeydə alınıb. Bu barədə Gürcüstanın xəstəliklərə və ictimai sağlamlığa nəzarət üzrə Milli mərkəzindən məlumat yayıblar.

Mərkəzin məlumatına görə, virusdan 39 yaşlı kişi vəfat edib. O, Tbilisiyə Qərbi Gürcüstandan gətirilibmiş.

Bununla belə mütəxəssislər hazırkı mərhələdə Gürcüstanda epidemiya təhlükəsinin olmadığını bildiriblər. “Biz xəstəliyin fevralda artacağını gözləyirik, onun səviyyəsinin epidemiya sərhədini keçməyəcəyini düşünürük”, – həkimlər qeyd ediblər.

Xatırladaq ki, Gürcüstanda H1N1 virusuna yoluxma ilk dəfə 2009-cu ilin iyulunda qeydə alınıb. Bu günədək ölkədə bu virusdan 39 nəfər ölüb. Bütünlükdə isə bu virusla 567 xəstəlik hadisəsi qeydə alınıb.

Qəzetimiz çapa hazırlanarkən, H1N1 virusundan dünyasını dəyişənlərin sayının artaraq, yeddiyə yüksəldiyi məlum oldu.

# ŞAGİRDLƏRİNİN 20%-DƏN ÇOXU QRİP VİRUSUNA YOLUXMUŞ MƏKTƏBLƏR BAĞLANACAQ

Xəstəliklərə nəzarət və ictimai sağlamlıq Milli mərkəzinin direktoru Amiran Qamkrelidze yanvarın 26-da keçirilmiş mətbuat konfransında bəyan edib ki, qripə görə şagirdlərinin 20%-dən çoxu dərs buraxan məktəbləri və uşaq baxçalarını ən azı üç sutka bağlamaq lazımdır.

Gürcüstanda H1N1 virusuu ilə xəstələnmə hallarının artması müşahidə olunsa da, ölkəni epidemiya təhdid etmir. Son məlumatlara görə, qrip ucbatından dərsləri hələlik 16%-dən artıq məktəbli buraxır.

Xəstəliklərə nəzarət mərkəzi valideynləri qripin ilk əlamətləri müəyyən edildikdə uşaqlarını məktəbə buraxmamağa çağırıb.

Məktəblərə hər tənnəfüsdə siniflərin havasını dəyişmək, habelə mütamadi olaraq nəm əski ilə təmizlik həyata keçirmək tövsiyyə olunur. Bundan əlavə, ciddi şəkildə əllərin gigiyenası qayğısına qalmaq və bu mövzuda informasiya kampaniyası aparmaq lazımdır.

Məktəblərə həmçinin soyuqdəymə və qrip simptomları olan adamların buraxılmaması tövsiyyə olunur.

Əgər şagirddə qrip əlaməti meydana çıxarsa, məktəb həkimi onu təcili şəkildə sinif yoldaşlarından təcrid etməli və evə buraxmalıdır.

Hazırda ölkədə hər 100 min nəfərin 332 nəfərində virus müşahidə olunur. Gürcüstan üçün 100 min nəfərdən 500 nəfərin virusa yoluxması epidemiyanın başlanğıcı sayılır. Ilin əvvəlindən Gürcüstanda H1N1 virusundan üç, H3N2 virusundan isə bir kişi vəfat edib.

# ABİTURİYENTLƏRİN QEYDİYYATI FEVRALDA BAŞLAYACAQ

Gürcüstanın vahid milli imtahanlarında iştirak etmək üçün abituriyentlərin qeydiyyatı fevralda başlayacaq. Bu barədə Milli İmtahanlar Mərkəzinin məlumatında bildirilir.

Abituriyentlərin qeydiyyat qaydaları və qeydiyyat müddəti haqqında ətraflı məlumat yaxın vaxtlarda mərkəzin **naec.ge** rəsmi saytında yayınlanacaq.

Bu ilki yenilik qeydiyyatdan sonra ay yarım müddət ərzində imtahan fənlərini və imtahanı vermək istədiyin dili dəyişməkdən ibarətdir. Lakin Vahid Milli İmtahanları vermək üçün seçilən şəhəri dəyişmək bu il də mümkün olmayacaq.

Tələbə adı almaq üçün üç məcburi fəndən – ümumi qabiliyyət, gürcü dili və ədəbiyyatı, xarici dil, eləcə də bir seçim fənnindən imtahan vermək lazım gələcək

HAQQIN SÖZÜ-SÖZÜN HAQQI.

# Yeni YOL

31 yanvar 2016-ci il
№0016 (16)

yeni_yol@mail.ru | İCTİMAİ QƏZET | "იენი იოლი" საზოგადოებრივი გაზეთი | qəzet 17 iyun 2015-ci ildən nəşr olunur

## GƏNCƏLİ ALİM "NOBEL" MÜKAFATINA NAMİZƏD GÖSTƏRİLDİ



AMEA-nın Gəncə bölməsinin doktorantı, gənc antropoloq-alim Elnur Həsənovun namizədliyi Nobel mükafatı Komitəsinə irəli sürülüb.

Moderator.az xəbər verir ki, İsveç Kral Akademiyası Rəyasət Heyətinin qərarı ilə Azərbaycan Respublikasının Elm üzrə "Prezident mükafatçısı", İsveç Kral Akademiyasının, Yaponiya Elm cəmiyyətinin və Almaniyanın Frankfurt – Höte Universitetinin fəxri üzvü, Gəncədən olan gənc alim Elnur Həsənovun namizədliyi Nobel mükafatı Komitəsinə irəli sürülüb.

Qeyd edək ki, Elnur Həsənov gənc olmasına baxmayaraq, elm sahəsində xeyli uğura imza atıb.

Xatırladaq ki, Azərbaycan Milli Elmlər Akademiyasının Gəncə Bölməsinin antropologiya, etnoqrafiya və etnologiya elmləri üzrə doktorantı, İsveç Kral Akademiyasının müxbir üzvü olan Elnur Həsənovun Yaponiya, ABŞ, İsveç, Sinqapur, Almaniya, Fransa, İtaliya,Meksika və s. ölkələrdə çap edilən çoxsaylı elmi əsərləri gənc müəllifin elm aləmində nüfuzlu bir tədqiqatçı olduğunu sübut edir.

## AZƏRBAYCANLI ABŞ-DA YÜKSƏK VƏZİFƏYƏ SEÇİLDİ

ABŞ-da yaşayan Qarabağ Fondunun təsisçisi Adil Bağırov Ohayo ştatının Deyton şəhər Təhsil Şurasının rəhbəri seçilib.

Adil Bağırov hələ 2013-cü ildə Amerikanın ən önəmli dövlət vəzifələrindən hesab edilən Təhsil Şurasının yeddi üzvündən biri seçilmişdi. Bununla da, Birləşmiş Ştatlarda rəsmi vəzifəyə seçilən ilk Amerika azərbaycanlısı adını almışdı.

Qeyd edilir ki, Deyton Təhsil Şurasının 500 milyon dollarlıq illik büdcənin istifadə edilməsi və 14 min şagirdin oxuduğu dövlət məktəblərinə nəzarət etmək kimi səlahiyyəti var.

Türkiyə mətbuatının yazdığına görə, Azərbaycanın öndə gələn ailələrindən birində böyüyən Bağırov son illər siyasətə maraq göstərir. İki



uşaq atası olan həmyerlimiz Amerika Türk Şurasının keçmiş rəhbəri Sevin Elakdağ ilə evlidir.

## T Ə B R İ K L Ə R



İki il öncə doğulub balaca Rabia. Dünyaya gəlişi ilə atası Elsəvər bəyə, anası Kübra xanıma dünyalar bəxş edib. Rabianın doğulması ilə çox şeylər dəyişib – Elsəvər ata olmağın sevincini dadıb, Kübra xanım ana olmağın. İki il öncə bir yanvar günü dünyaya gələn Rabia balamız neçə evə, neçə könlə işıq paylayıb, nur səpib. Qarayazıdan Sadaxlı elinə – Eldar babasına, Gülxanım nənəsinə, Famil əmisinə və neçə-neçə yaxın və doğma insana xoş bir xəbər uçub. Bu xəbərin adı Rabia idi. Hamının qəlbinə sevinc bəxş edən, hamının könlünü oxşayan bir xəbər. Rövşən babası, Gülnarə nənəsi də Qarayazıda sevinclərindən bir əl-ayaq da satın almışdılar. Elşən dayısı ona dayılıq adlı bir hissi yaşadan Rabianın dünyaya gəlişinə necə sevinməyə bilərdi?

Artıq Rabianın iki yaşı tamam olub. Onun ayaq açıb yeriməsi, dil açıb danışması bir ailənin sevinc mənbəyinə çevrilib. Rabianın hər gününün gözəlliklər içində keçəcəyini, yaşının üstünə yaş gəldikcə təkcə bir ailənin yox, bütöv bir elin-obanın layiqli övladı olacağını ümid edib, onun bir ömür boyu xoşbəxtlik içində yaşamasını Allahdan təmənna edirik.

Ad günün mübarək, Rabia xanım!



Vidadinin dünyaya gəlişi ilə bir gənc atanın, bir gənc ananın sevincini ölçmək, bu aşıb-daşan sevinci çərçivəyə salmaq mümkün deyildi. Bu günlərdə üç yaşı tamam olan Vidadi bəyin doğulmasından üzü bu yana yaşanan sevincli anları, xoşbəxt dəqiqələri üst-üstə gəldikdə bu sevincin böyüklüyünü təsəvvür etmək belə çətindir. Vidadinin dünyaya gəlişi bir ailənin sevinci olmaqdan çıxıb, bir elin toy-bayramına çevrildi. Atası Eldarın, anası Fəridənin sevincindən bütün qohum-əqrabaya pay düşdü. Bir körpənin dünyaya gəlişindən yaranmış sevinc neçə-neçə doğma insanın qəlbində yanar işığa döndü. Nənələrin-babaların, əmilərin-dayıların, xalaların-bibilərin sevinc payı kimi doğuldu Vidadi bəy.

Artıq üç yaşını tamamlayan Vidadi balamızın hər gün bir buğda boyu böyüyəcəyinə, yaşının üstünə yaş gəldikcə ailəsi üçün, eli-obası üçün dəyərli bir oğul kimi yetişəcəyinə, milləti və xalqı üçün əvəzsiz şəxsiyyət kimi formalaşacağına ümid edərək, Allahdan ona uzun ömür, can sağlığı və xeyirli əməllər diləyirik, ad günün mübarək olsun deyirik.

## ŞOTA RUSTAVELİNİN "PƏLƏNG DƏRİSİ GEYMİŞ PƏHLAVAN"I BOLQAR DİLİNDƏ NƏŞR EDİLİB




Gürcüstanın Bolqarıstandakı fövqaladə və səlahiyyətli səfiri Zurab Beridzenin təşəbbüsü ilə və gürcü diasporunun dəstəyi ilə görkəmli gürcü şairi Şota Rustavelinin "Pələng dərisi geymiş pəhləvan" poeması bolqar dilində çap olunub.

Gürcüstan XİN-nin məlumatına görə, bu nəşr böyük şairin 850 illik yubileyinə həsr olunub.

On ikinci əsrə məxsus olan gürcü poemasının bolqar dilinə tərcüməsi Bolqarıstan prezidentinə və baş nazirinə, Bolqarıstan hökumətinin üzvlərinə, eləcə də dövlət universitetinə, digər təhsil müəssisələrinə və kitabxanalara təqdim olunub.

Məlumat üçün bildirək ki, böyük gürcü mütəfəkkirinin ölməz "Pələng dərisi geymiş pəhləvan" əsərinin ərəb dilində nəşr olunmuş variantı bu günlərdə Misirin paytaxtı Qahirədə keçirilən beynəlxalq kitab sərgisində də nümayiş etdirilib.

## YAPON ALİMLƏRİ BİR KÖKDƏN BİR NEÇƏ DİŞ YETİŞDİRƏ BİLİBLƏR



Tokio tibbi-stomatologiya universitetinin və Tokio fiziki-kimyəvi tədqiqatlar institutunun alimləri bir kökdən bir neçə diş yetişdirməyi öyrəniblər.

Laborotoriya araşdırmalarının gedişində siçanların diş toxumalarından hüceyrələr götürülərək, onlardan iki həftə ərzində diş rüşeymi yetişdirmişlər.

Sonra tədqiqatçılar çox zərif neylon sapın köməyi ilə rüşeymi iki yerə bölmüş və onu yetişdirməkdə davam etmişlər.

Diş hissələrinin hər birində genlərin inkişafına məsul olan ekspressiya saxlanılmış və buna görə nəticədə yaponlara iki tam dəyərli diş əldə etmək müyəssər olmuşdur.

Bu diş siçanlara implantasiya olunarsa, yararlılığını tamamilə qoruyacaq.

Bu texnologiya insan üzərində hələ sınaqdan keçirilməyib, lakin bu, stomatologiyada inqlab ediləcəyinə ümidləri artırır.

## ÜRƏYİN DOSTU OLAN 6 İDMAN NÖVÜ



Qaçmaq – əyləncəli və gərgin iş sonrası belə, gerçəkləşdirilə bilən, iri əzələ qruplarını ritmik olaraq çalışdıran aerobik idmandır.

Velosiped sürmək – iri əzələ qruplarını çalışdıran aerobik idmandır. Diz ağrınız varsa, ayaqcıqları yüksəldə bilərsiniz.

Üzgüçülük – həftədə 2 və ya 3 saat üzmək məsləhətdir. Sümük və oynaqlara az yük düşdüyü üçün piylənmə və oynaq problemi olanlar üçün möhtəşəm seçimdir.

Eliptik velosiped istifadə etmək – həm ayaq, həm də qolları çalışdırır. Ritmik hərəkətlər gövdə və çiyinlərə qan axımını da təmin edir.

Rəqs etmək – motivasiyaedici bir musiqi ürək ritmini 120-135 arasında artıra bilir.

Tai chi – bütün dünyanın sevimlisi olan Tai Chi hərəkətli meditasiyanı təmin edən möhtəşəm aerobik idmandır.

## BAŞSAĞLIĞI

Kosalı ictimai məktəbinin pedaqoji kollektivi iş yoldaşları Lamiyyə Vilayət qızına və Roza Mustafayevaya əzizləri

**Nihat Etibar oğlu Qasımovun**

vaxtsız vəfatından kədərləndiyini bildirir, mərhumun ailəsinə və yaxınlarına dərin hüznlə baş sağlığı verir.

Allah rəhmət eləsin!

Təsisçi:
*"Gürcüstan gənclərinə Yardım və Maarifləndimrə Təşkilatı"*

**Redaktor:**
**Afiq Muxtaroğlu**
***Yayım Direktoru:***
**Hacı Bəkiroğlu**

Ünvan: Qardabani şəh, Kolxoz küç, 4
Tel/ (+995) 595 92 25 70
599 54 12 92
email: yeni_yol@mail.ru

Redaksiyaya gələn əlyazmalar geri qaytarılmır və onlara rəy verilmir.
Müəlliflə redaksiyanın mövqeyi müxtəlif ola bilər.
Qəzet hələlik ictimai əsaslarla yayımlanır və pulsuz paylanır.
Qəzetdə müxtəlif informasiya agentliklərinin xəbərlərindən də istifadə olunur.